www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26-29 may 2018-ci il Şənbə № 115 (7004) Qiyməti 60 qəpik

**Xəbər**

## Türkmənlər dollar almaq üçün Bakıya axışır- təfərrüat

yazısı səh.13-də

**Gündəm**

### Dünyanın aparıcı şirkətlərinin rəhbərləri Bakıya gəlir




Beynəlxalq Xəzər Neft və Qaz "Caspian Oil and Gas" sərgi və konfransı öz 25 illik yubileyini qeyd edir

yazısı səh.9-da

### Trampdan Bakıya şifrəli Qarabağ mesajı

yazısı səh.3-də

### Yaxın üç gündə silsilə bayram tədbirləri keçiriləcək

yazısı səh.5-də

### Litva prezidenti niyə Azərbaycana deyil, Gürcüstana bel bağlayır?

yazısı səh.3-də

### Bakının iki mübhəm ərazisi: "Sovetski" və Bayıl yamacı...

yazısı səh.10-da

### Təhsil eksperti deputata "diletant" dedi

yazısı səh.5-də

### "Mirmahmud Mirəlioğlu sədrlikdən gedir" iddiası

yazısı səh.7-də

### "Hakimiyyət regionda nələrin baş verəcəyini bilir" - ekspertlər

yazısı səh.8-də

### Əli Kərimlinin ucuz şousu: "öldürdülər" dediyi adam qardaşı ilə görüşdü və...

yazısı səh.7-də

**Ramazan ayının 10-cu günü**

İftar 20.16. İmsak 03.29-dək (QMİ)

10-cu günün duası: "İlahi, bu gün məni Sənə təvəkkül edənlərdən qərar ver! Belə bir gündə Sənin hüzurunda yaxşı işlərə müvəffəq olanlardan hesab et! Məni Öz ehsanınla yaxın bəndələrindən qərar ver! Ey istəyənlərin Son İstəyi!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

### Rusiyanın "5-ci kolon"u yığışdırılır - ermənilər təlaşda

# QARABAĞ CƏBHƏSİNDƏ BAKININ ÖNÜ AÇILIR!

Yeni baş nazirin ordu rəhbərliyindəki son kadr təyinatı Kremlin qəzəbini daşıra bilər; Paşinyan Putinə "əlcək" atır? "Moskvanın cavabı gecikməyəcək, tezliklə Qarabağ cəbhəsində Bakının önü açılacaq" - erməni nəşrindən SOS



yazısı səh.9-da

## Azərbaycan narkobaronların hədəfində

"Qara kabus"un müəllifi gizli tranzit marşrutlarından danışdı: "Dağlıq Qarabağ və Abxaziya heroin trafikində önəmli yer tutur..."

yazısı səh.13-də



### "Trio" çəkdi, üç manatlıq hörməti qalmadı - İbrahimbəyovun titulları alına bilər

yazısı səh.4-də



### Ərdoğan Qüdsə "Müsəlman NATO-su" göndərmək istəyir

yazısı səh.12-də



### Rüfət Aslanlı banklara "nəzarəti itirdi" - yeni fərman

yazısı səh.6-da



## Azərbaycanda əməkhaqqına vahid vergi yükü tətbiq ediləcək

**"Hazırda bütün vergi ödəyiciləri və sahibkarlar üçün mühüm olan bir mövzu müzakirə edilir. Bu, Prezident İlham Əliyevin tapşırığına əsasən vergi yükünün azaldılmasına yönəldilən və işçilərin əməkhaqlarının vergiyə cəlb edilməsinin sadələşdirilməsinə yönəldilən bir islahatdır".**

"APA-Economics"in məlumatına görə, vergilər naziri Mikayıl Cabbarov deyib ki, islahat əməkhaqqına tətbiq olunan vahid vergi yükü müəyyənləşdirilməsini nəzərdə tutur.

"İndi müzakirə edilən vahid vergi yükünün həcmləri hazırda qüvvədə olan qanunvericiliklə tətbiq olunan vergi yükündən əhəmiyyətli dərəcədə fərqlənir. Yəni hazırda vergi yükünün həcminin aşağı salınması məsələsi müzakirə edilir. İnanırıq ki, belə bir islahatın həyata keçirilməsi qeyri-rəsmi məşğulluğun aradan qaldırılmasına, o cümlədən əməkhaqlarının real şəkildə əks etdirilməsinə xidmət etməli, bu işə öz töhfəsini verməlidir", - deyə M.Cabbarov vurğulayıb.

## Vitse-prezidentlərlə bağlı qanuna dəyişiklik edilir

**Azərbaycanın birinci vitse-prezidentinə və vitse-prezidentlərinə dövlət qulluqçusu statusu şamil edilməyəcək. "Qafqazinfo" xəbər verir ki, bununla bağlı "Dövlət qulluğu haqqında" qanunun 2-ci maddəsinin (Dövlət qulluğu) 2.4-cü bəndinə dəyişiklik təklif edilir.**

Layihəyə görə, 2.4-cü maddədə adıçəkilən qanunda başqa hal nəzərdə tutulmayıbsa, bu qanun Azərbaycan prezidentinə, birinci vitse-prezidentinə və vitse-prezidentlərinə, Milli Məclisinin deputatlarına, baş nazirə və onun müavinlərinə, məhkəmə hakimlərinə, İnsan hüquqları üzrə müvəkkilə (Ombudsmana), mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinə və onların müavinlərinə, Mərkəzi Seçki Komissiyasının sədrinə, sədr müavinlərinə, katibinə və üzvlərinə, Hesablama Palatasının sədrinə, sədr müavininə və auditorlarına, yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinə (başçılarına), Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarına, Muxtar Respublikanın baş nazirinə və onun müavinlərinə, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinə, habelə hərbi qulluqçulara şamil olunmur.


Dan Stav

## Səfir qondarma "erməni soyqırımı" ilə bağlı planlaşdırılan müzakirələrə münasibət bildirib

**İsrail parlamentində qondarma "erməni soyqırımı"nın tanınması ilə bağlı planlaşdırılan müzakirələr ilkin dinləmələrdir və məcburi xarakter daşımır. Bu barədə "Report"a İsrailin Azərbaycandakı səfiri Dan Stav bildirib.**

"Bu, ilkin müzakirələrdir, onun heç bir məcburi təsiri olmayacaq. İsrail hökuməti müvafiq vaxtda öz mövqeyini parlamentə təqdim edəcək", - o deyib.

Daha əvvəl bildirildiyi kimi, Knessetin Mətbuat xidmətinin məlumatına görə, İsrail parlamenti Türkiyə ilə münasibətlərin kəskinləşməsi fonunda erməni xalqının qondarma "soyqırımı"na dair ümumi müzakirələr aparmağı qərara alıb.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# "Formula 1 Azərbaycan Qran Prisi" daha olmayacaq?

**"Mayami "Formula 1" üzrə dünya çempionatının təqvimində Bakını əvəzləməyəcək".**

Bunu "Formula 1" üzrə Azərbaycan Qran Prisinin promouteri Arif Rəhimov deyib. O bildirib ki, Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin (BŞH) yarışın təşkilatçısı ilə 2020-ci ilə qədər müqaviləsi var: "Bu sözləşməyə yalnız qarşılıqlı razılaşma əsasında xitam vermək olar. Lakin bunu etməyə hazırlaşmırıq. Bundan əlavə, "Liberty" şirkətinin bizim Qran Prini istəməməsinə dair heç bir əlamət görmürəm. Yeni təqvim açıqlanandan sonra şayiələrə son qoyulacaq".


Arif Rəhimov

Müqavilə müddətinin 2025-ci ilədək uzadılması ilə bağlı hələ qərar vermədiklərini deyən A.Rəhimov bildirib ki, daha yaxşı şərtlərin təklif olunmasını gözləyirlər: "Sözləşmənin uzadılması ilə bağlı qərarı iyunun sonunda verməliyik. Lakin biz son müddəti danışıqların aparılması üçün təxirə sala bilərik. İstənilən halda, iyunun axırında məsələni həll etməyə çalışacağıq. Düşünürəm ki, razılaşacağıq".

**Qeyd edək ki, 2019-cu ildə "Formula 1" üzrə Azərbaycan Qran Prisinin 26-28 apreldə keçiriləcəyi gözlənilir.**



## Azərbaycanda doğulmuş erməni Bakıya gəlib

**Azərbaycanda doğulmuş və hazırda Rusiyada yaşayan erməni Bakıya gəlib.**

Ermənistan-Azərbaycan Vətəndaş Sülh Platformasının Mətbuat xidmətindən "Report"a verilən məlumata görə, Bagiryan Eduard Apkaroviçin səfərini platforma təşkil edib.

Məlumatda bildirilib ki, E.Apkaroviç hazırda Moskvada yaşayır. O, Ermənistan-Azərbaycan Vətəndaş Sülh Platformasının üzvüdür.

## Havanın temperaturu 5-7 dərəcə aşağı enəcək

**Azərbaycanda mayın 26-da gözlənilən hava şəraiti açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Hidrometeorologiya Departamentindən "Report"a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən-buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gün ərzində arabir güclənən şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturunun Abşeron yarımadasında gecə 16-20, gündüz 25-30, Bakıda gecə 17-19, gündüz 27-29 dərəcə isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 754 mm civə sütunundan 759 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 65-75, gündüz 45-55 faiz təşkil edəcək.



## Milli Qəhrəman telekanalları ittiham etdi

**2016-cı ilin aprelində qəhrəmanlıq nümayiş etdirmiş, döyüşlərdə gözünü və ayağını itirmiş Azərbaycan ordusunun baş leytenantı Kamil Musəvi Azərbaycan televiziyasının acınacaqlı vəziyyətdə olmasından şikayətlənir və bununla bağlı videomüraciətlə çıxış edib.**

"Nə vaxt televiziyanı açıram şou proqramları, nə vaxt televiziyanı açıraq, şou verilişlər. Başa düşə bilmirəm, bizim işğalda olan şou-biznesimizdir, yoxsa torpaqlarımız?" - sosial şəbəkələrdə fəal şəkildə yayılan videomüraciətdə zabit deyir.

Zabit ucuz şou-proqramların deyil, vətənpərvərliyin təbliğinə daha çox diqqət ayrılmasına çağırır.

"Mən bunu kimlərəsə irad tutmaq, kimlərəsə qarşı getmək üçün demirəm, ürək ağrısı ilə deyirəm. Bizim bu gün bir şeyə ehtiyacımız var - o da vətənpərvərlikdir. Vətənpərvərlik təbliğ olunmalıdır, gənc nəsil vətənpərvər ruhda böyüməlidir", - o deyib.


Orxan Məmmədov

## Azərbaycanda biznes evləri yaradılacaq

**Azərbaycanın müxtəlif şəhər və rayonlarında kiçik və orta biznes evlərinin yaradılması planlaşdırılır. "Report" xəbər verir ki, bunu İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin icraçı direktoru Orxan Məmmədov deyib.**

Onun sözlərinə görə, biznes evlərinin yaradılmasında məqsəd sahibkarlara dəstək olmaqdır: "Agentlik kiçik və orta biznes evlərinin təşkilini, əlaqələndirilməsini və tənzimlənməsini vahid səlahiyyətli qurum kimi həyata keçirəcək".

## Oqtay Əsədov Gürcüstana səfərə gedir

**Milli Məclisin sədri Oqtay Əsədov Gürcüstanın ilk Demokratik Respublikasının 100 illiyi ilə əlaqədar tədbirlərdə iştirak etmək üçün mayın 26-da Tbilisidə səfərdə olacaq.**

Tədbirin açılış mərasiminə Gürcüstanın Prezidenti, Baş naziri, parlamentin sədri, yubileyə dəvət olunmuş dövlət və hökumət başçıları qatılacaqlar.

Gürcüstan parlamentində keçiriləcək "İnkişaf üçün əməkdaşlıq: gələcək 100 il üçün strategiya" mövzusunda "dəyirmi masa"da Milli Məclisin sədri O.Əsədov çıxış edəcək.

Səfər çərçivəsində parlament sədrinin tədbirdə iştirak edən nümayəndə heyətlərinin başçıları ilə bir sıra görüşləri gözlənilir. (Trend)

## "ASAN xidmət" və "ASAN Kommunal" 1 gün işləməyəcək

**28 may - Respublika günü münasibətilə "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində qeyri-iş günüdür. Bu barədə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İnformasiya təminatı şöbəsindən məlumat verilib.**

Bildirilib ki, vətəndaşlar mayın 29-dan mərkəzlərə müraciət etməklə müvafiq xidmətlərdən yararlana bilərlər.

Qeyd edək ki, hazırda 13 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 5-i paytaxtda olmaqla, digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba və Mingəçevirdədir.

Həmçinin Bakı şəhərində əhaliyə kommunal sahədə xidmətlər göstərən 2 "ASAN Kommunal" mərkəzi fəaliyyətdədir.

## "LUKOİL" yataqlarının işlənilməsi ilə bağlı SOCAR-la danışıqlar aparır

**"Rusiyanın "LUKOİL" neft şirkəti Azərbaycan Dövlət Neft Şirkəti SOCAR-la danışıqlar aparır".**

Bunu APA-nın Rusiya bürosuna açıqlamasında "LUKOİL" şirkətinin prezidenti Vahid Ələkbərov bildirib.

Onun sözlərinə, "LUKOİL" SOCAR-la Ümid və Babək yataqlarının işlənilməsi ilə bağlı danışıqlar aparır: "Biz yeni aktivlərə ümid edirik. "Ümid-Babək" layihələrinə baxırıq. Danışıqların uğurla nəticələnəcəyinə ümid edirəm".

YENİ MÜSAVAT
N 115 (7004) 26 may 2018

# Trampın Bakıya şifrəli Qarabağ mesajı

## Ağ Ev rəhbəri Qarabağ və Naxçıvan bölgəsində gərginliyin artdığı bir durumda "münaqişənin həlli üçün imkanlar"dan bəhs etdi; səbəb TANAP, yoxsa...

**"ABŞ prezidenti cənab Tramp birinci dəfə deyil ki, Azərbaycanı öz tərəfdaşları hesab etdikləri haqda bəyanat verir. "Əsrin kontraktı" adlanan müqavilənin vaxtının uzadılması ərəfəsində də belə bir bəyanat oldu. Təbii ki, ATƏT-in Minsk Qrupunda təmsil olunan belə bir super gücün rəhbərinin verdiyi bəyanat mühüm məsələdir".**



**Politoloq Arzu Nağıyev** bu fikirləri ABŞ prezidenti Donald Trampın Azərbaycan prezidentinə ünvanlandığı məktubda Qarabağla bağlı nikbin mövqeyini "Yeni Müsavat"a şərh edərkən söylədi. Qeyd edək ki, Ağ Evin başçısı Azərbaycan prezidentinə yazdığı məktubda Qarabağ cəbhəsində situasiyanın gərginliyi barədə hətta ABŞ ekspertlərinin və milli kəşfiyyatının xəbərdarlıqlarını bir kənara qoyaraq, dinc həllin perspektivinə inamını ifadə edib. "Qarşıdan gələn aylar Dağlıq Qarabağ münaqişəsinin həlli üçün imkanlar açacaq, bu isə ABŞ-Azərbaycan əməkdaşlığının genişləndirilməsinə daha yaxşı şərait yaradacaq" - cənab Tramp yazıb. ABŞ lideri ardınca qeyd edib ki, ATƏT-in Minsk Qrupunun həmsədri kimi Birləşmiş Ştatlar bu münaqişənin sülh yolu ilə dayanıqlı həlli üçün cənab İlham Əliyevlə əməkdaşlığı səmimiyyətlə arzulayır.

Diqqətçəkən budur ki, Azərbaycan prezidenti Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Ermənistana işğalçılıq əməllərinə son qoymaqdan ötrü növbəti xəbərdarlığını etmişdi. Həmçinin o, düşmənin istənilən mövqelərini sıradan çıxartmağa qadir uzaqmənzilli raketlərimizin olduğunu bildirmişdi. Bundan sonra isə düşmən təxribatı nəticəsində Azərbaycan hərbçisi Naxçıvan istiqamətində həlak oldu və rəsmi Bakı buna olduqca sərt reaksiya verəcəyini bildirdi. Hətta araşdırmaçı-ekspert Tomas de Val son açıqlamalarının birində qeyd etmişdi ki, prezident İlham Əliyev təxribatçı bəyanatlar verən baş nazir Nikol Paşinyana reaksiya vermir, lakin bu, Azərbaycanın sonadək susacağı anlamına vermir. Bu mənada mümkündür ki, ABŞ prezidenti Azərbaycan prezidentinə savaş qərarını verməkdən yayınmaqla bağlı mesaj vermək istəyib. Özü də Ermənistanın Naxçıvan istiqamətindən atəşkəsi pozmasının arxasında ABŞ-ın dayandığı haqda rusiyalı ekspertlərin şərhləri də yayılır bu aralar. Tramp isə bu mövqeyi ilə gərginliyə maraqlı olmadığını nümayiş etdirib. O da istisna olunmur ki, ABŞ lideri İran ətrafında gərgin situasiyanın yaranması şəraitində Cənubi Qafqaz bölgəsində sülhüm qorunmasında maraqlıdır, nəinki savaşda.

**Politoloq A.Nağıyev də bildirdi ki, Ermənistanda hakimiyyət dəyişdikdən sonra Rusiya ciddi-cəhdlə Paşinyanı öz əlində saxlamağa çalışır**: "Buna isə Qərb müxtəlif istiqamətlərdə, istər iqtisadi, istərsə də siyasi cəhətdən mane olur. Rusiya həm də öz nüfuzunu bərpa etməyə çalışır və münaqişənin həll olmasına o qədər də meylli deyil. Çünki münaqişənin müsbət həlli onun regionda nüfuz dairəsinin kiçilməsi deməkdir. ABŞ isə öz növbəsində Azərbaycanla ticarət, terrorizmlə mübarizə, təhlükəsizlik və enerji sahəsində tərəfdaş olduğunu bildirir. Bunun ən pik nöqtəsi də Cənub qaz dəhlizi layihəsində ümumi maraqdan çıxış etməkdir. TANAP layihəsi iyun ayının 12-də rəsmi fəaliyyət bağlayacaq. Məlumdur ki, bu boru vasitəsilə ildə 16 milyarda kubmetr qaz Avropaya və Türkiyəyə çatdırılacaq". **A.Nağıyev digər mühüm məqama da diqqət çəkdi**: "Maraqlısı odur ki, bu layihəyə Avropa İranı da qoşmağa çalışır və ABŞ bunun əleyhinədir, Rusiya da təkid edir bu məsələni. Türkmənistan qazının da bu layihə üzrə nəqli məsələsi gündəmdədir. Lakin buna Rusiya razılıq vermir. Əsas məsələ odur ki, Rusiyanın ikinci Şimal layihəsi aktuallığını itirə bilər. Məhz bu problemlər görə Xəzərin statusu məsələsi də sona çatdırılmır. Bunu deməkdə əsas fikri ondan ibarətdir ki, ABŞ bütün bu məsələlərdə ən uğurlu və mühüm partnyor kimi Azərbaycanı görür. Buna görə də regionun, ən əsas da Azərbaycan olan təhlükəsizliyə təhdidin qarşısının alınmasının ən mühüm yolu Dağlıq Qarabağ münaqişəsinin həllidir və bununla Rusiyaya da zərbə vurula bilər".

"Donald Trampın Azərbaycan prezidentinə yazdıqlarından belə anlaşılır ki, o, Azərbaycanın regionda önəmli ölkə olduğunun fərqindədir və Azərbaycansız ABŞ bu bölgədə öz planlarını həyata keçirmək üçün çətinliklərlə üzləşə bilər".

**Bunu isə ermənişünas-alim Qafar Çaxmaqlı** "Yeni Müsavat"a bildirdi. Ekspertin sözlərinə görə, enerji məsələsini qabartması və son günlərdə TANAP layihəsinin işə düşməsi Amerikanı Azərbaycanla əməkdaşlıq etməyə sövq edəcək: "Yəni Amerika buradakı problemlərə daha aktiv yanaşacaqdır. Həm də Azərbaycan İran məsələsinin aktuallaşması fonunda hərbi strateji müttəfiqə belə çevrilə bilər. Burada bizi maraqlandıran Amerikanın Qarabağ məsələsi ilə bağlı sərgiləyəcəyi siyasətdir. ABŞ dəfələrlə problemin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarı olduğunu bildirmişdir. Bu istiqamətdə yürüdülən siyasətimizə dəstək ala bilərik. Məsələ hərbi müstəviyə çıxsa həmin prinsip bizim əlimizi gücləndirə bilər. Məncə, Trampın bu məktubu təqdir edilməli və Azərbaycanın xarici siyasətində önəmli vasitə kimi istifadə edilməlidir".

**Yeri gəlmişkən, gələn həftə Bakıda daha bir mühüm beynəlxalq tədbir, Xəzər Beynəlxalq Energetika və Alternativ Enerji Sərgisi keçiriləcək.**

**❑ Cavid TURAN, "Yeni Müsavat"**

# Litva prezidenti niyə Azərbaycana deyil, Gürcüstana bel bağlayır?

## Şahin Cəfərli: "Qərbin gözündə Gürcüstanın əzabkeş obrazı var"

**Litva prezidenti Dalya Qribauskaytenin Cənubi Qafqazla bağlı son açıqlamaları Azərbaycanda da müzakirələr doğurub. Xanım dövlət başçısı bildirib ki, Gürcüstan Cənubi Qafqazda yeganə ölkədir ki, ona bel bağlamaq olar.**


Dalya Qribauskayte

Məsələni NATO istiqamətindən dəyərləndirən Litva rəhbəri rəsmi Tiflisin bu qurum yolunda atdığı addımları yüksək dəyərləndirib və bir növ Cənubi Qafqazda Gürcüstana önəm verməlirini bu yolla izah edir. D.Qribauskayte Gürcüstandakı islahatları da müsbət qələmə verib.

Məlumdur ki, Azərbaycanla Litva arasındakı əlaqələr ən yüksək səviyyədədir. Rusiyanın əlaltısı hesab olunan Cənubi Qafqaz ölkələrindən biri kimi Ermənistanı haradasa başa düşmək olar, amma Azərbaycanla müqayisədə xanım prezidentin nədən Gürcüstana bu qədər etibar etdiyi suallar doğurur.

**Politoloq Şahin Cəfərli** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Litva prezidentinin Gürcüstanın şəninə tərif deməsinin çox sadə səbəbi var: "Gürcüstan Litvanın yolu ilə gedir. Litva və digər Baltik cümhuriyyətləri SSRİ dağılan kimi, dərhal və tərəddüdsüz Qərbə inteqrasiya yolunu seçdilər, 2004-cü ildə Avropa Birliyi və NATO-ya üzv oldular. Gürcüstan da uzun müddətdir bu yolu seçib. Bu seçim şübhəsiz ki, Baltik ölkələrində Gürcüstana simpatiya yaradıb. Eyni zamanda, Rusiya tərəfindən başına gətirilən fəlakətlərə və ən müxtəlif əngəllərə qarşılaşmasına baxmayaraq, inadla avroatlantik inteqrasiya kursunu davam etdirməsi Gürcüstana olan simpatiyanı artırmaqla yanaşı, ona münasibətdə acıma duyğusu da yaradıb. Yəni hazırda Baltik ölkələrinin və Qərbin gözündə Gürcüstanın əzabkeş obrazı var. Xanım Qribauskaytenin sözləri də məhz buradan qaynaqlanır. Vaxtilə sovet imperiyasının tərkibində olmuş Baltik xalqları və siyasətçiləri gürcülərin halını daha yaxşı anlayır. Baltik regionunun Qərbə inteqrasiya hamar və ağrısız olduğu halda, Gürcüstan Rusiyanın hücumuna məruz qalan və əraziləri birbaşa Moskva tərəfindən işğal olunan kiçik bir ölkədir. Bu səbəblə, istər Litva, istərsə də Latviya və Estoniya hökumətləri hesab edirlər ki, Qərb Gürcüstana, eləcə də Ukraynaya daha aktiv dəstək verməlidir. Onların Cənubi Qafqazda Gürcüstanı xüsusi fərqləndirməsi Gürcüstanın özünün Ermənistan və Azərbaycandan fərqli siyasət yeritməsi ilə əlaqədardır. Ermənistanın Rusiyaya nə qədər sıx bağlı olduğunu hamı bilir. Azərbaycanın Qərb və Rusiya arasında balans saxladığı, hər hansı tərəfə üstünlük vermədiyi hər kəsə aydındır. Gürcüstan isə NATO və Avropa Birliyinə tamhüquqlu üzvlüyü öz xarici siyasətinin prioriteti elan edib. Ona görə də Litvanın bu bölgədə Gürcüstana üstünlük verməsini təbii qarşılamaq lazımdır. Litva çox istərdi ki, Gürcüstan qısa müddətdə avroatlantik strukturlara qəbul edilsin, hətta Moldova ilə Ukrayna da onlara qoşulsun. Altı keçmiş sovet respublikasının yenidən eyni inteqrativ məkanda bir araya gəlməsi ehtimalı var. Bunun gerçəkləşməsi nəticəsində həmin 6 ölkə NATO-nun və Avropa Birliyinin içərisində yeni güc mərkəzi formalaşdıra bilər. Bu halda hazırda adı çəkilən qurumlarda elə də güclü mövqelərə malik olmayan Litvanın, Baltik ölkələrinin ağırlığı artacaq. Mən Dalya Qribauskaytenin bəyanatında Azərbaycana qarşı hər hansı xoş olmayan baxış, neqativ münasibət hiss etmədim. Litva-Azərbaycan ikitərəfli əlaqələri yaxşı səviyyədədir. Sadəcə, qeyd etdiyim kimi, Gürcüstana fərqli münasibət var".

**Beynəlxalq əlaqələr üzrə ekspert Elşən Mustafayev** hesab edir ki, Baltik respublikalarının Rusiyaya münasibətinin kəskin olması məlumdur: "Onun Cənubi Qafqazda bel bağlanası ölkə olaraq Gürcüstanı göstərməsi də sırf Rusiya Qərb münasibətləri ilə bağlıdır. Bilirik ki, Gürcüstan Saakaşvili vaxtından Rusiya ilə diplomatik münasibətlər saxlamır, insanları Rusiyaya vizasız gedə bilmirlər və vizanı almaq belə çox çətindir. Rusiyaya loyallığı bildirilən İvanaşvili hakimiyyətə gələndən sonra da Gürcüstanda anti-rus mövqeləri yumşalda bilmədi. Çünki Kreml körpüləri elə yandırmışdı ki, onunla hansısa iş birliyinə getmək istəyən hakimiyyət gürcü xalqı tərəfindən qısa müddətdə siyasi meyitə çevrilə bilərdi. Bütün bunları nəzərə almaqla Litva prezidenti fikirləri səsləndirib. Burada bir həqiqət var ki, Gürcüstan Rusiya Qərb münasibətlərində birmənalı Qərbi dəstəkləyir, çünki başqa alternativi də yoxdur. Bu siyasi baxımdan söylənilən konkret məqsədi olan fikirlərdir".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 115 (7004) 26 may 2018

# "Trio" çəkdi, üç manatlıq hörməti qalmadı

## Rüstəm İbrahimbəyovun "Qafqaz triosu"na təpkilər davam edir

**Artıq bir neçə gündür ki, xalq yazıçısı, kinorejissor Rüstəm İbrahimbəyovun ssenari müəllifi və prodüseri olduğu "Qafqaz triosu" adlı filmi ölkə gündəmində müzakirə edilir.**

Film barədə ilk etirazı **tanınmış kinorejissor Ayaz Salayev** bildirib. O, "Bakinskiy raboçiy" qəzetində 23 may 2018-ci il tarixdə geniş məqalə ilə çıxış edib. Məqalə "Rüstəm İbrahimbəyov və onun ermənilərin faciələrində azərbaycanlıların günahkar olması haqda filmi" adlanır.

2015-ci ildə çəkilmiş filmin 3 ildən sonra gündəmə gəlməsinə tanınmış kinorejissor Ayaz Salayev modern.az saytına açıqlamasında münasibət bildirib.

"Qafqaz triosu" filminə yarım il bundan qabaq baxmışam. 3-4 ay olardı ki, bu filmlə bağlı tərəddüd edirdim. Yazım, yoxsa yazmayım... Burada heç nə yoxdur. Əsas mənbə mənəm. Tam məsuliyyətimlə deyirəm. Bu, planlaşdırılmış məsələ deyil. Sadəcə, məni narahat etdiyinə görə ürəyimi boşaltmaq qərarına gəldim. Yazdım və çap edildi. Burada öncədən planlaşdırılmış, sifarişli heç nə yoxdur" deyə, o bildirib.

**Azərbaycan Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov da məsələyə münasibət bildirib:** "Rüstəm İbrahimbəyov cılız məqsədlərini həyata keçirə bilmədiyi üçün xalqını aşağılayır. Belələrinə satqın da, nankor da demək olar. Bunu ancaq pisləmək olar. Azərbaycanın dünyada tanındığı vaxtda belə addım satqınlıqdan, nankorluqdan başqa bir şey deyil".

"Azərbaycan Kinematoqrafçılar İttifaqında işlədiyi zaman öz dağıdıcı siyasəti ilə yadda qalıb" deyən **Kinematoqrafçılar İttifaqının birinci katibi Cəmil Quliyev** filmin başdan-ayağa yalan, iftira, eyni zamanda, siyasi konyunktura əsasında qurulduğunu söyləyib: "Filmdə Rüstəm İbrahimbəyov qeyri-vətəndaş mövqeyindən çıxış edir, özünə siyasi dividend qazandırır. Bütün bunlar da düşmənin dəyirmanına su tökməkdir".

Mədəniyyət Nazirliyi də Rüstəm İbrahimbəyovun ssenarisi əsasında Azərbaycan xalqını aşağılayan, onun milli hisslərini təhqir edən, cılız siyasi məqsədlər güdən belə bir eybəcər "film"in çəkilməsini qəti şəkildə pislədiyini, yaradıcılığının son illərini Vətənə, içərisindən çıxdığı xalqa dönük insan olaraq yaşayan kinodramaturqun bu ikrah doğuran əməllərindən dərin təəssüf hissi keçirdiyini bəyan edib.

**Sənətçilər də filmlə bağlı sərt reaksiyalar verib. Fəxrəddin Manafov AzTV-də Rüstəmbəyovun filminin müzakirəsi ilə bağlı verilişdə iştirak edib.** F.Manafov Rüstəm İbrahimbəyovun rəhbərlik etdiyi Azərbaycan Kinematoqrafçılar İttifaqını tərk etdiyini bildirib. Azərbaycan Dövlət Televiziyasının "Günün Nəbzi" verilişinin qonağı olan xalq artisti adıçəkilən ittifaqı sərt tənqid edib: "Mən fiziki olaraq o qurumla əlaqədə deyiləm. Mən o qurumun rəsmi nümayəndəsinə zəng etdim. Çox təkidlə ona dedim ki, mən de-fakto orda yoxam, de-yure məni ordan xaric eləyin. Mən bundan sonra o qurumda iştirak etmək fikrində deyiləm. Mən inanmıram ki, bu cür ağır məsələdən sonra o qurumda azərbaycanlılardan kimsə qalsın.O qurumda artıq heç kəs qalan deyil".

*Maraqlıdır, niyə 2015-ci ildə çəkilən "Qafqaz triosu" niyə bu günə qədər diqqət olmayıb?*

Qeyd edək ki, filmin tamamlanma işləri 2015-ci ilin iyunun sonunda başa çatıb, 2017-ci ildə isə internet resurslarında yerləşdirilib. **Ayaz Salayev sualımıza cavab olaraq bildirdi ki, film Gürcüstanda çəkildiyindən və qəhrəmanlar gürcü aktyoru olduğundan kino qurumları ona nəzarət edə bilməyib:**

"Bu filmə Azərbaycan Mədəniyyət Nazirliyinin heç bir dəxli yoxdur. Yəni Azərbaycan kino qurumlarının, Mədəniyyət Nazirliyinin, vətəndaşlarının heç bir dəxli, aidiyyəti yoxdur".

**Tanınmış kinorejissor, xalq artisti Oqtay Mirqasımov** "Yeni Müsavat"a açıqlamasında qalmaqallı filmə baxdığını deyib:

"Qeyd edim ki, film sənət əsəri kimi çox bəsit və primitivdir. Burada bilmirəm, müəlliflər düşünüb, ya hansısa sifarişçilərin məqsədidir ki, bu boyda siyasi, hüquqi, faciə baş verib, lakin sanki ayrı-ayrı insanlar arasında olan anlaşılmazlıq kimi qələmə verilib. Filmin əvvəlində belə bir yazı gedir - ərazi baxımdan Azərbaycanda yerləşən Dağlıq Qarabağ vilayəti öz müstəqilliyini elan etdi. Ərazi baxımından? Sual verən lazımdır ki, niyə ərazi baxımından? Qarabağın ərazi, tarixi, hüquqi baxımdan da əzəli Azərbaycan torpaqları olduğu kimə məlum deyil ki?

Filmdə elə səhnələr var ki, qətiyyən ağlasığan deyil. Azərbaycan ailəsində olan uşaq heç vaxt kiminsə başına daş atmaz. Bu, azərbaycanlı əxlaqına, təbiətinə xas olmayan xüsusiyyətdir. Bizim millət sülhsevər, humanist, hətta bir az da sadəlövhdür, hər kəsə də inanır. Elə son illər başımıza gələnlər, xalqımıza qarşı əsassız ərazi iddiaları da məhz bu sadəlövhlüyün nəticəsidir. Bizim xalqımızda qəddarlıq, xəyanətkarlıq yoxdur".

Onu da qeyd edək ki, artıq Rüstəm İbrahimbəyovun rəhbərlik etdiyi Azərbaycan Kinematoqrafçılar İttifaqında istefalar başlayıb.

Rüstəm İbrahimbəyov Azərbaycan SSR əməkdar incəsənət xadimi, xalq yazıçısı adını alıb, "Şöhrət" ordeninə layiq görülüb. Bu günə qədər o, "Bir cənub şəhərində", "Ölsəm... bağışla", "İstintaq", "Həm ziyarət, həm ticarət", "Əli və Nino" kimi məşhur filmlərin ssenari müəllifi olub.

**❑ Xalidə GƏRAY, Musavat.com**






# Rüstəm İbrahimbəyovun titullarının alınması üçün prezidentə müraciət edildi

## "Ermənilərin bütün xarakteristikasını Rüstəm İbrahimbəyov azərbaycanlıların üzərinə qoyub"

**Xalq yazıçısı Rüstəm İbrahimbəyovun ssenari müəllifi olduğu "Qafqaz triosu" filmi mətbuatda və sosial şəbəkələrdə geniş müzakirə olunan mövzudur. 2015-ci ildə lentə alınan filmin rejissoru gürcü əsilli Eldar Şengelaya və Fuad İbrahimovdur.**

Dağlıq Qarabağ mövzusunun adı belə keçməyən filmdə azərbaycanlılar ermənilərlə müqayisədə vəhşi, qəddar, qorxaq obrazında təqdim edilib. Bunun əksinə, ermənilər ziyalı, mərhəmətli şəxslər kimi qələmə verilib. Milli Şuranın qurucusu və rəhbərlərindən biri kimi vaxtilə prezidentliyə namizədliyini irəli sürən Rüstəm İbrahimbəyovun öz xalqına bu cür münasibət bəsləməsi və bunun fonunda Ermənistanla Azərbaycanı alçaq formada müqayisəyə qoyması, filmdə özünü yeganə "yaxşı azərbaycanlı" kimi təqdim etməsi cəmiyyətdə birmənalı qarşılanmayıb.

**Deputat Fəzail Ağamalı** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, Azərbaycan dövləti tərəfindən Rüstəm İbrahimbəyova verilmiş bütün titullar, fəxri adlar geri alınmalıdır. Çünki artıq Rüstəm İbrahimbəyov öz hərəkəti ilə həmin titulları daşımaq haqqını itirib: "Rüstəm İbrahimbəyovun atdığı addım sağlam düşüncəyə sığan məsələ deyil. Ermənilər belə bir film hazırlasaydılar bəlli olacaqdı ki, bu, ermənilərin əsrlərdir apardığı anti-azərbaycan təbliğatının tərkib hissəsidir. İndi ermənilərdən daha betər Rüstəm İbrahimbəyov Azərbaycan xalqına böhtan atır. Dünyaya Azərbaycanı olduğu kimi deyil, olduğunun tamamilə əksi kimi təqdim edir. Bu, artıq şərəfsizlikdir, ləyaqətsizlikdir, xalqına xəyanətdir. Rüstəm İbrahmibəyovun çəkdiyi film xüsusi sifarişlə çəkilib. Təəssüflər olsun ki, Rüstəm İbrahimbəyov öz millətinin alçaldılması üzərindən özünü hansısa dairələrin mükafatlarını almaq istəyir. Ona Azərbaycan xalqı öz qiymətini verdi. O, Azərbaycan xalqının tarixində yaşayası insan deyil. Ona görə də Azərbaycan dövlətinin ona verdiyi bütün mükafatlar, fəxri adlar, titullar geri alınmalıdır. Çünki o, şöhrətə, şərəfə layiq deyil. Rüstəm İbrahimbəyov ilk növbədə xalq yazıçısı fəxri adından məhrum edilməlidir. Çünki xalqının yanında deyil. Mən Rüstəm İbrahimbəyovu erməndən betər erməni kimi qəbul edirəm. Bu adam ermənilərin azərbaycanlıları qətl etməsini, hamilə azərbaycanlı qadının qarnını yarıb uşağı çıxardığını, azərbaycanlı uşağın ətini anasına yedirtmələrini, azərbaycanlı qadının döşünü kəsib ağlayan körpəsinin ağzına basmalarını, azərbaycanlı uşaqları divara mıxladıqlarını görməməzlikdən gəlir. Beləsi nəinki titullardan, ümumiyyətlə Azərbaycana aid hər şeydən məhrum edilməlidir".

**Deputat Bəxtiyar Sadıqov** da "Yeni Müsavat"a bildirdi ki, Rüstəm İbrahimbəyovun bütün fəxri titulları alınmalıdır. Rüstəm İbrahimbəyov ermənidən artıq erməni olduğunu bu filmi ilə sübut edib: "Rüstəm İbrahimbəyov faktiki olaraq Azərbaycan xalqına qarşı çıxıb. Bir vaxtlar bu xalqın prezidenti olmaq istəyən bu şəxs xalqını düşmənin ayağına verib xalqına, dövlətinə xəyanət etdi. Onun ən böyük xəyanəti həqiqətə etdiyi xəyanətdir. Rüstəm İbrahimbəyov nəinki Azərbaycan dövlətinin verdiyi fəxri tituları daşımağa, hətta azərbaycanlı adını daşımağa layiq deyil. Ona görə də mən cənab prezidentimizdən xahiş edirəm Azərbaycan dövləti adından Rüstəm İbrahimbəyova verilmiş bütün mükafatlar, fəxri adların geri alınmasını təmin etsin. Onun ordenləri əlindən alınmalı, onu Azərbaycan vətəndaşlığından məhrum edib bir daha Azərbaycana buraxmaq lazım deyil. Çünki Azərbaycan xalqına düşmən nə edə bilərdisə Rüstəm onu elədi. Ermənilərin bütün xarakteristikasını Rüstəm İbrahimbəyov azərbaycanlıların üzərinə qoyub".

**Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının birinci katibi Cəmil Quliyev** AZƏRTAC-a bildirib ki, Rüstəm İbrahimbəyovun siyasi kursu, onun ermənipərəst mövqeyi artıq 2009-cu ildən özünü büruzə verir: "Rüstəm İbrahimbəyov Azərbaycan Kinematoqrafçılar İttifaqında işlədiyi zaman öz dağıdıcı siyasəti ilə yadda qalıb. Vaxtilə biz bir qrup kinematoqrafçı buna etiraz əlaməti olaraq, o qurumdan çıxdıq və yeni ittifaq yaratdıq. Həmin vaxtdan etibarən bu insanın mövqeyinə qarşı, ermənipərəst əməllərinə qarşı mübarizə aparmışıq. Qeyd etmək istərdim ki, onun yaradıcılığında həmin dövrdən bu günədək qırmızı bir xətt keçir. Məsələn, onun ekranlaşdırdığı "Əlvida, cənub şəhəri" filmində analoji mövqeyi hiss olunur. Bu insanın bütün strategiyası Azərbaycan xalqını aşağılamaq məqsədi daşıyır. "Qafqaz üçlüyü" filmində ölkəmizin həyata keçirdiyi neft strategiyası tənqid olunur. Bu film başdan-ayağa yalan, iftira, eyni zamanda, siyasi konyunktura əsasında qurulub. Filmdə Rüstəm İbrahimbəyov qeyri-vətəndaş mövqeyindən çıxış edir, özünə siyasi divident qazandırır. Bütün bunlar da düşmənin dəyirmanına su tökməkdir".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 115 (7004) 26 may 2018

**Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə bağlı müxtəlif dövlət qurumlarında, təhsil müəssisələrində, ölkə xaricində tədbirlər keçirilir, bu şanlı tarixi hadisələrlə bağlı seminarlar təşkil olunur. Cümhuriyyət tədbirlərini həm dövlət qurumları, həm də müxtəlif siyasi, ictimai təşkilatlar təşkil edirlər.**

# 28 May - iqtidarlı-müxalifətli hər kəsin bayramı

## Yaxın üç gündə silsilə bayram tədbirləri keçiriləcək





Xatırladaq ki, ötən ilin may ayında prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında sərəncam imzalayıb. Həmin sərəncamda Xalq Cümhuriyyətinin milli dövlətçilik salnaməsini müstəsna dərəcədə zənginləşdirdiyi və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin respublikada dövlət səviyyəsində geniş qeyd edilməsi əksini tapıb. Nazirlər Kabinetinə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlamaq tapşırılırdı, Milli Məclisə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin yaranmasının 100 illik yubileyi münasibətilə xüsusi iclasın keçirilməsi tövsiyə edilirdi.

28 May Respublika Günü - Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə Azərbaycan Respublikasının prezidentinin "İstiqlal" abidəsini ziyarət edəcəyi, ölkə prezidentinin adından rəsmi qəbul, təntənəli bayram mərasimi keçiriləcəyi bildirilir. Bakı Şəhər İcra Hakimiyyətindən verilən məlumatda isə deyilir ki, mayın 28-də böyük bayram konserti keçiriləcək.

Siyasi partiyalarda "Cümhuriyyət-100" tədbirləri keçirilir və mayın 28-də bayram tədbirləri daha geniş şəkildə keçiriləcək.

**Hakim Yeni Azərbaycan Partiyasının rayon təşkilatlarında bayram tədbirləri keçirilir.** Müxalifət partiyaları isə mayın 28-də bayram mərasimlərini Novxanıda Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadənin abidəsi önündə keçirməyi planlaşdırıblar.

**Müsavat Partiyasından əldə etdiyimiz məlumata görə, mayın 28-də "İnşaatçılar" metrostansiyasının yaxınlığındakı "Məhsul" stadionunda bayram mitinqi keçirmək üçün Bakı Şəhər İcra Hakimiyyətinə rəsmi məktub göndərilib.** Lakin BŞİH bayram mitinqinə razılıq verməyib. Ona görə Müsavat Partiyası mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı bayram tədbirini Novxanıda keçirəcək.

**Əli Kərimlinin rəhbərlik etdiyi AXCP-nin daxil olduğu Milli Şuranın mayın 28-nə "Məhsul" stadionunda keçirmək istədiyi bayram mitinqinə də razılıq verilməyib.** Milli Şuradan verilən məlumata görə, BŞİH bildirib ki, mitinqin mayın 26-da keçirilməsini məqsədəuyğun hesab edir. BŞİH-in cavabının Milli Şurada müzakirə edildiyi, mayın 26-da mitinq keçirmək qərarından imtina olunduğu bildirilir.

Qurum mayın 28-də Novxanıda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı bayram mitinqi keçirməyə qərar verib.

**AĞ Partiyanın sədri Tural Abbaslı** isə bildirdi ki, onlar AĞ partiya olaraq Cümhuriyyətin 100 illik yubileyinin ancaq bir ayda və ya bir gündə qeyd olunmasının tərəfdarı deyillər. Bu tədbirlər bütün il boyu keçirilməlidir: "Çünki bu hadisə bizim təsəvvür etdiyimizdən də böyük bir hadisədir. Odur ki, biz çalışacağıq il sonuna qədər bu mövzuda bir neçə tədbir keçirək. Konkret olaraq, 28 may günü isə AĞ partiyanın rəhbərliyi olaraq ya Məhəmməd Əmin Rəsulzadənin Novxanıdakı abidəsini, ya da şəhərin mərkəzindəki İstiqlal abidəsini ziyarət etməyi planlaşdırırıq. Təbii ki, digər partiya və təşkilatların dəvət etdikləri tədbirlərdə də iştirak edəcəyik".

**AMİP katibi Elşən Mustafayev** isə bildirdi ki, AMİP Cümhuriyyətimizin 100 illiyi ilə bağlı tədbirlərə ilin əvvəllərindən başlayıb. Tədbirlər çərçivəsində indiyədək 2 dəyirmi masa təşkil olunub, xarici qonaqların iştirakı ilə Bakıda AMİP-in təşkil etdiyi beynəlxalq konfransın bir paneli 100 illiyə həsr olunub: "Eyni zamanda AMİP-in üzv olduğu Beynəlxalq Demokrat İttifaqına daxil olan dünyanın 100-ə yaxın partiyasına Cumhuriyyət tariximizlə bağlı məlumatlar, bilgilər göndərilib. 28 mayda da partiya üzvləri ilə birgə bayram tədbiri keçirəcəyik".

KXCP İdarə Heyətinin üzvü Xəzər Teyyublu bildirdi ki, ənənəvi olaraq bayram tədbirləri keçiriləcək.

**VİP, AXP, ADP və digər siyasi təşkilatlar da mayın 28-də bayram tədbirləri keçirəcəklər.**

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Təhsil eksperti deputata "diletant" dedi

## **Etibar Əliyev:** "Asim Mollazadənin təhsil sahəsi ilə bağlı fikirlərinin əksəriyyəti diletant xarakterlidir"




**Milli Məclisin Elm və təhsil komitəsinin iclasında beynəlxalq fənn olimpiadalarının qaliblərinin istədikləri ixtisaslar üzrə ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmaları məsələsi müzakirə edilib. Məsələyə müsbət yanaşanlarla bərabər, buna qarşı çıxanlar da olub. Belə ki, deputat Asim Mollazadə bildirib ki, beynəlxalq fənn olimpiadalarının qalibləri ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunması məsələsi onu narahat edir: "Biz nə üçün tələbə qəbulu prosesinə başladıq? Sovet vaxtından da məhz universitetlərə tələbə qəbulu prosesində xoşagəlməz hadisələr olurdu. Azərbaycan dövləti sovet korrupsiya sisteminə qarşı universitetə tələbə qəbulu qaydalarını yaratdı. Bu gün də biz bu sahədə müəyyən inkişafa nail ola bilmişik. Tək varlı ailələrin "debil" uşaqları yox, imkansız ailələrin istedadlı uşaqları Azərbaycanda universitetlərə daxil ola bildi. Həmin uşaqlar müstəqillik dövrümüzdə təhsilini davam etdirə bilir və ölkəmizin müxtəlif qurumlarında çalışırlar".**

Deputat həmçinin qeyd edib ki, universitetlərə qəbul imtahanlarından imtina edilməsi üçün Azərbaycan təhsil sistemində çox ciddi islahatlar olmalıdır: "Bunun üçün universitetlərə və onların təhsil səviyyəsinə inanmalıyıq. Biz imkanı az olan ailələrin ödənişsiz təhsil almaları üçün qapılar açmalıyıq. Çünki hər zaman "papanın gül balalarını" xaricdə və ölkəmizdə oxutmaq üçün vəsait tapıla bilər. Tələbə qəbulu imtahanları Azərbaycanda məhz imkansız və savadlı uşaqların təhsil alması üçün qapını açan sistemdir. Beynəlxalq fənn olimpiadalarının qalibləri ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmamalıdır. Onlar elə imtahanı da verib universitetə qəbul oluna bilərlər. Mənə elə gəlir ki, biz bu sistemi pozmaqla hansısa xoşagəlməz hadisələr üçün imkanlar yaradırıq. Ya sistemdə köklü dəyişikliklər etməliyik, ya da buna toxunmamalıyıq. İmkan verməliyik ki, hamı ədalətli prinsiplərlə imtahanları verib, öz biliyi ilə universitetə daxil olsun".

**Təhsil naziri Ceyhun Bayramov** deputatın fikirlərinə cavab verərək, bildirib ki, mövcud qanunvericiliyə görə, beynəlxalq fənn olimpiadalarının qalibləri ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunurlar: "Beynəlxalq fənn olimpiadasında mükafat yeri tutmaq çox böyük bir nailiyyətdir. Azərbaycan 5 fənn *(riyaziyyat, informatika, fizika, kimya və biologiya)* üzrə beynəlxalq olimpiadalarda iştirak edir. Orada təmsil olunan şagirdlərin ayını götürsək və güman etsək ki, bizim olipiadaya gedən uşaqlarımızın hamısı qalib yerlər tutub, cəmi 23 nəfərdən danışırıq. Dünyanın bir çox ölkələri beynəlxalq fənn olimpiadalarının qaliblərinə qapılarını geniş açırlar. Onlar deyirlər ki, siz gəlib bizim universitetlərdə pulsuz təhsil alın və s. O, uşaqlara görə çox ciddi rəqabət gedir. Burada isə sərtləşdirici məqamların qoyulması bizim xeyrimizə işləmir. Siz son illərin statistikasına baxsanız görərsiniz ki, beynəlxalq fənn olimpiadalarının qaliblərindən bizim ali təhsil müəssisələrinə qəbul olunan yoxdur".

**"Yeni Müsavat"a danışan təhsil eksperti Etibar Əliyev** bildirib ki, təhsil naziri qaldırdığı məsələdə haqlıdır:

"Beynəlxalq olimpiadada hətta ikinci, üçüncü, dördüncü yeri belə tutmaq çox böyük bilik göstəricisidir. Bu uşaqlar hərtərəfli biliyə sahibdirlər. Orada Azərbaycanın bayrağı da dalğalanır və düşünürəm ki, bunun önəmi daha çoxdur. Olimpiya idman oyunları qədər bu məsələyə önəm verilir. Belə olduğu halda isə məsələyə kimlərinsə qarşı çıxmasını başa düşə bilmirəm. Əgər şagird bu cür yüksək göstərici əldə edibsə, onun haqqıdır ki, ölkədə istənilən təhsil müəssisəsinə imtahansız qəbul olunsun. Kimsə məsələnin məğzini bilmədən buna qarşı çıxırsa, deməli, prosesin mahiyyətini anlamır. Bir məsələni də deyim ki, 15 yaşlı uşaqların riyazi, təbiət elmləri və oxu savadını qiymətləndirən PİSA proqramı var. Bu da deyim ki, çox çətin proqramdır. Həmin proqram üzrə yer tutan ölkələrdə bilik yarışmasının nəticəsinin elan olunduğu gün bayram kimi qeyd olunur. Yəni onlar bilik yarışmasını bu səviyyədə qiymətləndirirlər. Şübhəsiz ki, 15 yaşlı şagirdin hələ orta məktəbi bitirməsinə bir neçə il qalır. Ancaq bu cür bilik yarışmasına da çox böyük önəm verirlər. Bizdəki məsələyə gəlincə isə birincisi "Təhsil haqqında qanun"un bəndləri icra olunmalıdır. Çünki bunu ölkə başçısı təsdiq edib. Qanunda hansısa dəyişiklik ediləcəksə belə, olimpiya qalibləri ilə bağlı olan maddəyə toxunulmamalıdır. Yəni belə deyək ki, istədikləri ali məktəbi seçmək və imtahansız həmin ali məktəbə qəbul olmaq bu uşaqların haqqıdır. Başqa bir məsələni də deyim. Bu yaxınlarda Təhsil Nazirliyi respublika olimpiadasının qaliblərini təltif etdi. Hətta düşünürəm ki, həmin uşaqlara da müəyyən güzəştlər olmalıdır. Məsələn, riyaziyyat fənnindən olimpiadanın qalibi seçdiyi ixtisas üzrə riyaziyyat imtahanında azad olunsa, daha yaxşı olar. Yaxud da biologiya fənni üzrə qalibə, seçdiyi ixtisas üzrə biologiyadan imtahanda iştirak etməmək güzəşti verilə bilər. Yəni beynəlxalq olimpiyada yarışları ölkənin təhsil sisteminin göstəricisidir. Bu istiqamət üzrə qaliblərin sayı nə qədər çox olarsa, ölkə üçün önəmlidir. Ölkə üçün önəmlidirsə, ölkənin daxilində də onlar üçün mütləq güzəştlər tətbiq olunmalıdır. Asim Mollazadənin fikirlərinə gəlincə isə deyim ki, onun təhsil sahəsindəki fikirlərini izləyirəm. Görürəm ki, Asim Mollazadənin təhsil sahəsi ilə bağlı fikirlərinin əksəriyyəti diletant xarakterlidir".

❑ **Əli RAİS, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 115 (7004) 26 may 2018



# Maliyyə Monitorinqi Xidməti Rüfət Aslanlıdan alındı

## Çirkli pulların yuyulmasına qarşı mübarizə gücləndiriləcək

**Prezident İlham Əliyev müstəqil Maliyyə Monitorinqi Xidmətinin yaradılması ilə bağlı fərman imzalayıb. Fərmanda qeyd olunur ki, Azərbaycanda cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizənin gücləndirilməsi üçün sistemli və kompleks tədbirlər həyata keçirilir: “Ölkəmizdə bu sahədə həyata keçirilən islahatlar, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi, institusional potensialın gücləndirilməsi, hesabatlılıq sisteminin yaradılması, qabaqcıl texnologiyanın tətbiqi sahəsində əldə edilmiş nailiyyətləri Avropa Şurasının Pulların Yuyulmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi yüksək dəyərləndirmişdir.**

Maliyyə xidmətlərinin çatdırılması kanallarının diversifikasiyası və beynəlxalq əlaqələrin genişlənməsi, informasiya-kommunikasiya texnologiyalarının inkişafı cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində də nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı yeni hədəflər müəyyən etmişdir.

Göstərilən hədəflərə nail olmaq cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərdə dövlət qurumlarının potensialının gücləndirilməsini və bu sahədə fəaliyyətin effektiv əlaqələndirilməsini təmin edən koordinasiya mexanizminin yaradılmasını, onlar arasında əməkdaşlığın və məlumat mübadiləsi sisteminin səmərəliliyinin artırılmasını, beynəlxalq əməkdaşlığın genişləndirilməsini zəruri edir".

**Ölkə prezidenti bu zərurəti nəzərə alaraq Maliyyə Monitorinqi Xidmətinin Maliyyə Bazarlarına Nəzarət Palatasının tərkibindən ayrılaraq müstəqil fəaliyyət göstərməsinə qərar verib.**

Onu da qeyd edək ki, Prezident fərmanı ilə 2009-cu ildə Mərkəzi Bank nəzdində yaradılmışdı. 2016-cı ilin fevralında isə onun tabeliyi dəyişdirilərək Maliyyə Bazarlarına Nəzarət Palatasına keçirilmişdi. O zaman gözlənilirdi ki, Rüfət Aslanlının nəzarətində qurumun işi daha da təkmilləşəcək, fəaliyyətində dəyişikliklər baş verəcək. Lakin bunların heç biri baş vermədi. Əksinə, Maliyyə Monitorinqi Xidmətinin fəaliyyəti əvvəlkindən daha da zəiflədi. Halbuki beynəlxalq qurumlar Azərbaycanda çirkli pulların yuyulmasına qarşı mübarizə aparan qurumun müstəqil və daha geniş səlahiyyətlərə malik bir qurum kimi fəaliyyət göstərməsini dəfələrlə təklif etmişdilər.

Azərbaycanda çirkli pulların yuyulması ilə bağlı fəaliyyətlər daim beynəlxalq təşkilatların diqqətində olub. Xüsusilə İrana qarşı sanksiyaların qüvvədə olduğu dövrdə Azərbaycanda cənub qonşumuzun pullarının yuyulması ilə bağlı dəfələrlə məsələ qaldırılıb. Hətta “Birlikbank” və “Royalbank”ın məhz İran pullarının yuyulmasında iştiraka görə lisenziyalarının geri alındığı bildirilirdi. Xatırladaq ki, Mərkəzi Bank hər iki bankın lisenziyasını geri çəkərkən “Banklar haqqında” qanunun 16.9-cu maddəsinə - terrorçuluğun maliyyələşdirilməsi və qanunsuz gəlir əldə olunması - istinad etmişdi. “Royalbank”ın sahibi isə İran əsilli iş adamı idi.

İran pullarının Azərbaycan vasitəsilə yuyulması məsələsi ötən ilin sonlarında ABŞ-da Rza Zərrab işi üzrə aparılan məhkəmə istintaqı zamanı da aktuallaşmışdı. Belə ki, məhkəmədə şahid qismində ifadə verən R.Zərrab İran pullarının yuyulmasında Azərbaycandan olan 3 nəfərin də iştirak etdiyini, bu prosesin bir hissəsinin məhz Azərbaycan üzərindən reallaşdırıldığını bildirmişdi. Həmin vaxt bir çox ekspertlər bu ifadə əsasında ABŞ və çirkli pulların yuyulmasına qarşı mübarizəyə nəzarət edən beynəlxalq qurumlardan Azərbaycana müəyyən təkliflərin olacağını proqnozlaşdırmışdılar.

**İran-ABŞ münasibətlərinin yenidən gərginləşdiyi, İrana qarşı sanksiyaların tətbiq olunduğu bir dövrdə Azərbaycanın Maliyyə Monitorinqi Xidmətinə müstəqillik verməsi, çirkli pulların yuyulması iddialarının yenidən gündəmə gətirilməsinin qarşısını almaq üçün atılmış addım da hesab oluna bilər.**

❑ **TURQUT,**
**“Yeni Müsavat”**

# Əfv edilənlərin evlərində bayram havası

## Novella Cəfəroğlu: “İlin sonuna qədər Azərbaycanda siyasi məhbus qalmayacaq”

**Prezident İlham Əliyevin Cümhuriyyətin yüz illiyi ilə bağlı imzaladığı ən böyük əfv sərəncamı gündəmdən düşmür. İçərisində 12 siyasi məhbusun olduğu 634 məhkumu əhatə edən sərəncam ən yüksək səviyyədə təqdir edilir, yüzlərlə ailəyə sevinc bəxş edilən əfv alqışlanır.**










Siyasilərdən azad olunanların adlarını bir daha təqdim edirik:

**Abdullayev Valeh (2012 “Eurovision” işi)**

**Babayev Nadir (Tale Bağırzadə - Nardaran işi )**

**Qasımov Əliağa (Nardaran)**

**Cabbarov Hilal (Nardaran)**

**Qurbanov Ələkbər (Nardaran)**

**Şahbazov Fail (Nardaran)**

**Şahbazov Natiq (Nardaran)**

**Quliyev Məhəmməd (Nardaran)**

**Kərimov David (Hicab məhbusu)**

**Rzayev Elşad (Hicab məhbusu)**

**Fərəcov Elnur (Neftçala, AXCP üzvü)**

**Şəkərov Saday (yazıçı).**

Sərəncamda diqqət mərkəzində olan bəzi siyasi məhbusların adının olmaması ilə bağlı da müəyyən müzakirələr açılıb. Avropa Şurasında Azərbaycanla bağlı qəbul edilən son qərarın REAL sədri İlqar Məmmədov başda olmaqla, bir sıra siyasi məhbusların həbsdə qalmalarına səbəb olduğu ehtimal edilir. Bir növ AŞ-dakı qərarın Azərbaycanda əfv öncəsi qəbul edilməsinin təsadüf olmadığı və bunun sərəncamda öz əksini tapdığı iddia edilir. Siyasi məhbus məsələsindən öz niyyətlərini həyata keçirmək istəyən Avropanın tələblərinə Azərbaycan kimi bir ölkənin boyun əyməməsinin doğru olduğu barədə fikirlər çoxsaylıdır.

İ.Məmmədov məsələsinin onun azadlığa buraxılması ilə bağlı beynəlxalq aləmin tələblərinin olduğu indiki vaxtlarda deyil, yaxın aylarda həll olunacağı bildirilir. İyunun 5-də REAL sədri ilə bağlı Azərbaycana verilən son vaxt da bitir. Bu tarixdən sonra ya məhkəmə, ya da digər yollarla onun azad ediləcəyi deyilir.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev** əfv sərəncamının prezidentin müstəsna səlahiyyətlərindən biri olduğunu qeyd etdi: “Ən böyük əfv sərəncamı imzalandı. Bu, cəmiyyət tərəfindən razılıqla qarşılanmalıdır. Amma unutmaq olmaz ki, istənilən addım hamı tərəfindən birmənalı qarşılana bilməz. Cəmiyyət müxtəlif düşüncəli insanlardan ibarətdir. Bu baxımdan əks fikirləri də normal sayıram. Hesab etmirəm ki, beynəlxalq təsisatların və eləcə də, yerli qurumların siyahılarında olan məhbuslar mütləq əfv olunmalıdırlar. Bunlar yoxdursa, bu əfv qənaətbəxş deyil kimi fikirlər düzgün deyil. Mən də məhbəs həyatı yaşamış bir insanam. Allah hamının qapısını açsın. Çox istərdim ki, hər kəs azadlığa çıxsın. Lakin heç bir halda şərtlə danışmaq olmaz. Kimsə cinayətə yol veribsə, qanun qarşısında cavab verməyi şərtdir. Demokratiya budur. Demokratiyadan danışıb, sonra sərf etməyəndə bundan imtina etmək doğru deyil. Özlərini siyasi sayan, siyasi məhbus olduğunu düşünən-hərçənd ki, mən belə düşünmürəm-şəxslərin əfvlə bağlı müraciətləri varsa, yəqin ki baxılar. Bir neçə nəfərə, bir neçə nəfərin himayədarlarının fikirlərinə görə əfv sərəncamını gözdən salmağa dəyməz. Arzu edərdim ki, belə normal addımlar davam etdirilsin. Azərbaycanda qəbul edilən, verilən qərarlar xarici təsisatlar vasitəsilə olmur. Avropa təsisatlarından bəzi məsələlərlə bağlı mənfi yanaşmalar olsa da, strateji məsələlərdə bu təsisatlarla əməkdaşlıq davam edir. Bəzi təsisatların bir sıra məsələlərdə mövqelərinin üst-üstə düşməməsi normaldır. Hər şey üst-üstə düşməyə bilər. Bunlar münasibətlərin gərgin olmasına dəlalət etmir”.

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu** iddialı danışdı: “Biz bu əfv öncəsi əlimizdən gələni etmişdik. Amma 634 nəfərin də azadlığa buraxılması çox müsbət qərardır. Bu sərəncamda bizim siyahıda Nardarandan olan şəxslər də var idi. 2-3 nəfər siyahımızdan məhbus azad olundu. Çoxsaylı şəxslər ərizə ilə bizə müraciət etmişdilər və bizim də ərizəmiz əsasında 20-ə yaxın məhbus azad olundu. Bu şəxslərin haqları pozulmuş, qanunsuz cəza almışdılar. Biz də çox inanırdıq ki, qalan siyasi məhbuslar azad olunacaq. Açığı sərəncam veriləndən sonra çox pis olduq. İstərdik ki, 634 deyil, 650 nəfər azad olunsun, onların içərisində də qeyd etdiyiniz siyasi məhbuslar da olsun. Bu ilin sonuna qədər Azərbaycanda siyasi məhbus qalmayacaq. Məhkəmələr və digər yollarla hamısı azad olunacaq. Qəbul olunacaq amnistiya ilə də bəzi siyasilər azadlığa çıxacaqlar. Çalışacağıq ki, ilin sonuna qədər növbəti əfv olsun”.

**REAL Partiyasının icraçı katibi Natiq Cəfərli** yüzlərlə ailənin sevincə qovuşmasının pozitiv addım olduğunu bildirdi: “İnsanlar öz ailələrinə qovuşdular. Amma beynəlxalq aləmin israrla azadlığını tələb etdiyi siyasi məhbusların demək olar heç birinin adı bu siyahıda yer almadı. Bu da bir çox problemlər yaradır. Azərbaycanla Avropa arasında son zamanlarda gərginləşən münasibətlər bir az da gərginləşə bilər. Təəssüflər olsun ki, siyasi məhbuslar nöqteyi-nəzərindən bu əfv özünü doğrultmadı. Avropa qurumları ilə bundan sonra gərginliyin artması ehtimalları yüksəkdir. Ölkəmizlə Avropa qurumları arasında ciddi danışıqlar gedirdi. İndi müzakirələrin, danışıqların dayandırılması baş verə bilər. Bu isə heç də yaxşı hal deyil. İlqar Məmmədovla bağlı Avropa Məhkəməsinin verdiyi vaxt iyunun 5-də bitir. Məhkəməyə Azərbaycan tərəfi rəsmi cavab verməlidir. Bu cavablardan biri Ali Məhkəmənin plenumuna məsələnin çıxarılması baş verə bilər ki, plenumda Avropa Məhkəməsinin qərarı yerinə yetirilə bilər. Ümid edirəm ki, belə də olacaq. İlqar Məmmədovun hansı formada azadlığa çıxması kimsə maraqlı deyil. Avropa Məhkəməsi üçün xüsusi bir seçim yoxdur. Təqribən 10 gün müddət qalıb. Ümidliyəm ki, Avropa Məhkəməsinə cavab vermək üçün Ali Məhkəmənin plenumu çağırılacaq və verilən qərarla İlqar Məmmədov azadlığa çıxacaq. Bu da Azərbaycanla Avropa arasında münasibətlərin yaxşılaşmasına səbəb ola bilər. Çünki bağlanacaq saziş Azərbaycan üçün daha vacibdir. Azərbaycan tərəfi bu müqavilənin bağlanmasında daha maraqlı olmalıdır. Bunu da sürətləndirəcək addımlardan biri də İlqar Məmmədovun azadlığa buraxılmasıdır. Digər siyasi məhbusların da azadlığa çıxması daha yaxşı olardı. Orada elə insanlar var ki, Azərbaycan hökuməti üçün təhlükəli deyillər. Mehman Hüseynov, Gözəl Bayramlı, Seymur Həzi kimi şəxslərin azad olunması çox yaxşı olardı. Bu da Azərbaycanın imicinin yaxşılaşdırılması yolunda atılan daha bir addım olardı”.

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

Yeni MÜSAVAT
N 115 (7004) 26 may 2018

# Həbsdəki sabiq icra başçısının "öldü" xəbəri yalan çıxdı

## Vəkil və qardaşı Saleh Rüstəmovla görüşdü: "Heç bir işgəncəyə məruz qalmayıb"

**AXCP sərdi Əli Kərimli və onun sosial şəbəkələrdəki elektoratı Saleh Rüstəmovun guya işgəncələrdən ölməsi barədə son iki gündə yayılmış dezinformasiyaların əsası yoxdur.**



Daxili İşlər Nazirliyi (DİN) həbsdə olan Gədəbəy Rayon İcra Hakimiyyətinin sabiq başçısı Saleh Rüstəmovun ölməsi ilə bağlı yayılan xəbərlərə münasibət bildirib.

DİN-in mətbuat xidmətinin rəisi, polis polkovniki Ehsan Zahidov "Report"un sorğusuna cavab olaraq deyib ki, yayılan məlumatlar həqiqətəuyğun deyil.

O bildirib ki, bu xəbərlər məqsədli şəkildə yayılıb:"Həmin şəxs sağ-salamatdır. Ona heç bir işgəncə verilməyib".

Nazirliyin mətbuat xidmətinin rəisi APA-ya bildirib ki, xəbər yayılandan sonra qardaşı və vəkili Saleh Rüstəmovla görüşüb. "Özü bildirib ki, saxlanılma şəraiti ilə bağlı narahatlığı yoxdur, heç bir işgəncəyə məruz qalmayıb. Bir qrup şəxs bu cür əsassız xəbərləri yaymaqla ictimaiyyəti aldatmağa çalışır".


Saleh Rüstəmov

**Vəkil Telman Nağdalıyev** də APA-ya yayılan xəbərələrin həqiqəti əks etdirmədiyini bildirib. Vəkil deyib ki, mayın 24-də və 25-də onun yanında istintaq hərəkətləri aparılıb: "Saleh Rüstəmov heç bir işgəncəyə məruz qalmadığını bildirdi. Qardaşı ilə də görüşdü. Heç bir problem yoxdur".

Qeyd edək ki, Rusiya vətəndaşı olan S.Rüstəmov Şəmkirdə saxlanılıb. Onun barəsində Cinayət Məcəlləsinin 234.4.3-cü (Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma, külli miqdarda törədildikdə) cinayət işi başlanıb və 4 aylıq həbs-qətimkan tədbiri seçilib

Saleh Rüstəmov 1992-1993-cü illərdə Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı olub.

Musavat.com-da olan məlumata görə, Saleh Rüstəmovun yaxınları mayın 25-də onun saxlandığı idarəyə çağırılıb və onlara görüş verilib.

Əli Kərimli ola bilsin, narahatdır ki, Saleh Rüstəmov istintaqda onun əleyhinə müəyyən ifadələr verə, əlaqələri açıqlaya bilər. Lakin sırf bunun üçün və öz şəxsi ambisiyaları naminə belə bir siyasi həyasızlıq ortaya qoymaq, Saleh Rüstəmovun yaxınlarını və ictimai rəyi yanlış yönləndirmək əxlaqdan kənar hərəkətdir.

❑ **İLKİN,**
**musavat.com**

# "Mirmahmud Mirəlioğlu sədrlikdən gedir" iddiası

## **Xəzər Teyyublu:** "Sədrliyə yenidən namizəd olacağı barədə suala cavab verməyi yalnız özü və yaxud qurultay deyə bilər"

**Klassik Xalq Cəbhəsi Partiyası(KXCP) qurultaya hazırlaşır. Partiyadan əldə etdiyimiz məlumata görə, qurultaya hazırlıq işləri yekunlaşmaq üzrədir. Qurultayda partiyaya sədr seçkisi də keçiriləcək. Diqqətçəkən məqamlardan biri xeyli vaxtdır KXCP sədri Mirmahmud Mirəlioğlunun sanki "kölgəyə" çəkilməsidir. Adətən aktivliyi, mediada tez-tez görünməsi ilə seçilən Mirmahmud Mirəlioğlunun nədən son zamanlar görünməməsi maraq doğurur.**





Bəzi iddialara görə, Mirmahmud ağa qurultay öncəsi bu cür davranış nümayiş etdirməklə sədrliyə digər iddiaçı olacaq şəxslərdən təbliğat sarıdan önə çıxmaq istəmədiyindən, necə deyərlər imkanlarından bu arada istifadə etməyi doğru saymadığından səssizdir. Başqa bir iddiaya görə, M.Mirəlioğlunun sədrliyə namizədliyini verməyəcəyi ehtimalı var və aktiv olmaması bununla bağlıdır.

**Qeyd olunanlarla bağlı KXCP İdarə Heyətinin üzvü Xəzər Teyyubluya aşağıdakı sualları ünvanladıq:**

*Partiyanın qurultayının vaxtı dəqiqləşibmi? Xəbərlər yayılıb ki, Mirmahmud Mirəlioğlu sədrliyə namizəd olmayacaq. Sədrliyə başqa iddiaçılar var? Sədrin keçmiş müavini Oqtay Gülalıyev sədr olmaq istədiyi təbliğatını sosial şəbəkədə aparır. Onun sədr olması mümkünmü? KXCP-də sədrliyə namizədliyini rəsmi irəli sürmək proseduru necədir, namizədlik qurultaydan əvvəl, yoxsa qurultayın gedişində irəli sürülür?*

**Xəzər Teyyublu "Yeni Müsavat"a bildirdi ki, KXCP azadlıq mübarizəsi iştirakçılarından ibarət təşkilatdır və ölkəyə demokratiya gətirən təşkilatdır. Partiya özünün nizamnaməsinə görə Ali Məclisin qərarı ilə növbəti qurultayına gedir. Qurultayın günü hələ təyin edilməyib. X.Teyyublu qeyd etdi ki, Nizamnamədə partiyanın üzvü olan şəxslərə sədrliyə namizədliyini vermək üçün hüquq tanıyır. Bu məsələdə heç bir məhdudiyyət yoxdur, hər bir partiya üzvünün müstəsna səlahiyyəti var ki, namizəd olsun**: "Təbii ki, partiya qurultayında sədrliyə rəsmi namizəd o vaxt hesab olunur ki, qurultayın gedişində namizədin adı rəsmi irəli sürülür və səsverməyə buraxılır".

**M.Mirəlioğlunun namizədliyi məsələsinə gəlincə, X.Teyyublu bildirdi ki, Mirmahmud bəy partiyanın sədridir, nüfuzlu şəxsdir, istiqlalçı millət vəkilidir, KXCP-nin yükünü çiyinlərində daşıyan insandır. Lakin sədrliyə yenidən namizəd olacağı barədə suala cavab verməyi yalnız özü və yaxud qurultay deyə bilər.**

Digər namizədlərin olub-olmayacağına gəldikdə, müsahibimiz dedi ki, hələlik hüquq müdafiəçisi Oqtay Gülalıyev iddia qoyub və bu haqda partiyanın Qurultaya hazırlıq üzrə Təşkilat komitəsinə rəsmi müraciət edib. Rayon şöbələrinin konfranslarında iştirak etmək arzusunu bildirib: "Texnoloji informatika dövrü və internet imkanlarından istifadə edərək Oqtay bəy özünün Facebook səhifəsindən sədrliyə iddiasını elan edib. KXCP demokratik təşkilatdır. Proseslərin necə olacağını isə zaman bildirəcək. Namizəd olmağa, Azərbaycanda demokratiyanın qələbə qazanması naminə mübarizə aparmaq üçün KXCP sıralarında istənilən vətəndaşımızın seçkili orqanlarda təmsil olunmasına əngəl yoxdur. KXCP müxalifət partiyası olaraq, Azərbaycanda demokratiyanın bərqərar edilməsində, vətəndaşların siyasi, sosial haqlarının müdafiəsində, Qarabağın qaytarılmasında, azad seçki, azad söz, insan hüquq və azadlıqlarının qorunmasında, Bütöv Azərbaycan qurulmasında fəaliyyət göstərir".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Əli Kərimlinin ucuz şousu: "öldürdülər" dediyi adam qardaşı ilə görüşdü və...

## **Razi Nurullayev:** "Yurdçular belə şantajlarla zaman-zaman gündəmdə olublar"



**Azərbaycan siyasətində son 25 ildə ən çox şantaj, hədə-qorxu gəlmək, şər-böhtan atmaq kimi üsullardan istifadə edən AXCP sədri Əli Kərimli "missiyasını" davam etdirir. Son olaraq, həbsdə olan Gədəbəyin sabiq icra başçısı Saleh Rüstəmovla bağlı partiya sədrinin təşkil etdiyi kampaniya buna sübutdur.**

Əvvəlcə facebookda paylaşdığı statusda guya işgəncələr yolu ilə keçmiş icra başçısının onun əleyhinə ifadə verdiyini bəyan edən AXCP lideri ardınca S.Rüstəmovun öldürüldüyü barədə dezinformasiyalar yaymağa başladı. Bunu da onun tərəfdarları tirajladılar. Mayın 24-ü axşam saatlarında Fransada yaşayan "Azadlıq" qəzetinin baş redaktoru Qənimət Zahidin S.Rüstəmovun öldürüldüyü, bunun gizlədildiyi və bir neçə gündən sonra sabiq icra başçısının intihar etməsi barədə xəbərlərin yayılacağı ilə bağlı facebookda açıq status paylaşdı. Ə.Kərimli sosial şəbəkədəki elektoratına komanda verdi və onlardan olan hər kəs profilinə "mərhum" Salehin fotosunu qoydu. Lakin onun planı və yalanı tez pozuldu. Belə ki, bu gülünc kampaniyanın vüsət götürdüyü gecənin səhəri günü Daxili İşlər Nazirliyi açıqlama yayaraq, S.Rüstəmovla bağlı dezinformasiyaları təkzib etdi. Keçmiş icra başçısının yaxınları Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə dəvət olundu və S.Rüstəmovla görüşən qardaşı Valeh Rüstəmov mətbuata açıqlamasında onun səhhətinin normal olduğunu, bədənində heç bir işgəncə izinin olmadığını söylədi.

**Yeni AXCP-nin sədri Razi Nurullayev "Yeni Müsavat"a açıqlamasında Ə.Kərimlini tutduğu yoldan geri çəkilməyə çağırdı:** "Öncəliklə onu deyim ki, Azərbaycan siyasətinə ilk növbədə, şantajı, hədəni, insanları qorxutmağı, qorxu altında saxlamağı, müxalifət içərisinə daxili diktaturanı AXCP deyil, Əli Kərimli gətirib. Bu partiyanın da sədri o deyil. AXCP sədri Razi Nurullayevdir. Əli Kərimli sadəcə "Yurd" sədridir. Yurdçular belə şantajlarla zaman-zaman gündəmdə olublar. Siyasətdə əxlaqlı davranışın tərəfdarıyam. İstəyirəm ki, bütün siyasətçilər əxlaqla davransınlar, bir-birini qurşaqdan aşağı vurmasınlar. Şəxsi maraqlar üçün istənilən şəxsin həyatını puç etmək olmaz. Siyasətdə bu və ya digər məsələlərə icazə verilsə də, bunlara müsəlman nöqteyi-nəzərindən baxmaq lazımdır. Biz müsəlmanıq, adət-ənənələrimiz, əqidəmiz var. Hazırda Ramazan ayıdır, Allahdan qorxmaq lazımdır. Kiməsə şər atmaq, ayağının altını qazımaq olmaz. Təəssüf ki, bu təkcə müxalifətə aid məsələ deyil. Sadəcə müxalifət içərisində bunu ən çox edən Əli Kərimlidir".

**R.Nurullayev Azərbaycanda məhbuslar üzərindən daim siyasi alverin getdiyini də qeyd etdi:** "Məhbuslar üzərindən siyasi karyeraların qurulduğu, pulların alınıb verildiyi az olmayıb. Hətta məhbus üzərindən kimlərsə deputat da olub. Bunlar bir reallıqdır. Bu reallıqların nə məhbuslara, nə də onların ailələrinə heç bir xeyri olmayıb. Bu məsələyə rəvac verənlər üçün deyə bilərəm ki, bu çox iyrənc bir yoldur. Həbsdə olan bu cür insanların ailələrinə səslənirəm ki, öz övladlarını, atalarını, bacı-qardaşlarını belə siyasi oyunlarda iştirakdan çəkindirsinlər, onların üzərindən siyasi oyunların qurulmasına imkan verməsinlər".

**Yeni AXCP sədri belə dezinformasiyaların ölkə daxilindən xaricdəkilərə ötürüldüyünü bildirdi:** "Xaricdə oturanlar Azərbaycana kamera qoyub nələrisə izləmirlər. Onlar təhlükəsizlik orqanı deyillər ki, hər hansı bir məsələni çözə bilsinlər. Bu məlumatlar onlara Azərbaycandan ötürülür. Onlar sadəcə bunu tirajlayırlar. Bu cür xəyanətkar addım atanları, oyunlar quranları Azərbaycanda zərərsizləşdirmək, bu yolla belə halların qarşısını almaq lazımdır. Ölkə daxilindən kimlərsə belə məlumatlar ötürməklə siyasi oyunlar qurur, özlərinə şəxsi gəlirlər əldə etmək istəyirlər. Bu baxımdan Azərbaycanda öncəliklə belə insanları cəzalandırmaq vacibdir. Çünki onlar cəzalandırılsa, xaricdəkilər belə "dezo"lar yaya bilməyəcəklər. Kimsə Azərbaycanda bunu yayımlayarsa, onun üçün ciddi təhlükə yaranar, bu məsələyə görə qanunla cavab verər. Əgər doğru məlumatı kimsə yayırsa, bu çox gözəldir, hər bir şəxsin də bu haqqıdır. Vətəndaşlar haqsızlığa qarşı biganə qalmamalıdırlar. Xaricidəkilər üçün yalan və ya düz məlumat yaymaq problem deyil. Onların əli ilə bir çox məsələlər tirajlanır".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 115 (7004) 26 may 2018



# Xaşıl diplomatiyası

Zamin HACI
zaminhaci@gmail.com

"- Gül biznesindəyəm - Tatarski özü də gözləmədən dedi. - Azərbaycanlılarla.
Azərbaycanlılarla? - Hüseyn şübhəylə soruşdu. - Hansı azərbaycanlılarla?
Rafiqlə, - ruhlanmış Tatarski dedi, - və bir də Eldarla. Təyyarə icarəyə götürürük, bura gül daşıyırıq, ora da özün bilirsən nə... İcarə işinə, əlbəttə, mən baxmıram. Mən arada gətir-götür işindəyəm".

*(Viktor Pelevin, "Generation P" romanından)*

****

**Bütün beynəlxalq şərtlər, o cümlədən daxildə gedən və getməyən proseslər iqtidarın xeyrinə işləməkdədir. Misal üçün, son əfvdə xeyli dindar siyasi məhbusu azad elədilər. Onları elə bu cür əfv fərmanlarında say düzəltmək üçün tutmuşdular, yoxsa iqtidarın dindən nə qorxusu? Din və iqtidar tarixən qardaş olmuşdur, indi də belədir. Hər dəfə belə əlavə siyasi dustaqlara ehtiyac var ki, amnistiya-zad veriləndə hakimiyyət üçün təhlükə törədən gerçək siyasi dustaqlar içəridə saxlanılsın. Vəssalam, şüttamam. Biz də, maşallah, həmişə belə haqq-hesabların başını düzəltmək üçün camaat istehsal edəcəyik.**

Beynəlxalq şərtlərə baxaq. Hazırda bölgədə və dünyada durum mürəkkəb görünür. Ancaq elə bu mürəkkəbliyin özü neftin qiymətini qaldırırsa nə xoş... Pul gəlirmi? Gəlir. Hərçənd, ilk baxışdan vəziyyətimiz bir az xarab görünür. Misal üçün, İsrail fələstinliləri qırır, müsəlman aləmi bizdən mövqe gözləyir. Axı biz islam aləminin liderlərindən biriyik - bunun isbatı üçün İslam Oyunları da keçirib bütün medalları özümüz qazanmışdıq. Türkiyə prezidenti deyir ki, azərbaycanlı qardaşlarımız İsrail mallarını almasınlar. Zalım oğlu, elə bilir asan məsələdir, İsrail mallarını kefimizdən alırıq. Dünyada yəhudi lobbisi bizim ölkənin əsas qardaşlıqlarından biridir... Tək biz deyilik, Trampdan Putinə qədər hamı bunlarla hesablaşır. Yəhudi lobbisi istəsə hətta məcbursan prezident işləyə-işləyə klipdə bambılılıq edəsən. Başqa cür mümkün deyildir. Biz indi bunlara necə dirsək göstərək? Oturduğu budağı kəsən neçə səfeh tanıyırsınız?

O cümlədən, Rusiya beynəlxalq aləmin, Qərbin sanksiyaları ilə üzləşib. Ölkə de-fakto və de-yure terrorla məşğuldur, hətta camaatın uçduğu təyyarələri vurub salır. Rusları sıxanda isə onlar da ətraflarındakı dövlətləri sıxırlar. Həmişə belə olubdur. İndi də şimaldan təzyiqlər artır. Ermənilər və farslar da həmçinin - tarixi düşmənçilik davam etməkdədir. Yeri gəlmişkən, ermənilər hazırda Paşinyan adlı tipin əleyhinə qalxmaqdadırlar, bunu isə təzə işə qoymuşdular. Demək bunlar bir növ adətkərdə olmuşlar. İndi özləri özlərini genosid və işğal edəcəklər. Hərçənd bunlar elə həmişə özlərini qırıb başqalarının üstünə atmaq ustası olmuşdur. O üzdən şəxsən mən dua edirəm Paşinyan tərəfdarları ilə Sərkisyan tərəfdarları bir-birini öldürməsin. Növbəti yüz ili də təzə "genosid" zırıltısına dözməyə halımız qalmamışdır.

Bir ara Səməd Seyidov Amerikada tarixi ifadə işlətmişdi, demişdi Azərbaycan Rusiya və İran arasında sendviç kimi sıxılır. İstəyirdi Amerika buna görə bizim iqtidardan dəstəyini azaltmasın. Hərçənd, fırıldaqçı yankilərin özlərinin Yaxın Şərqdə, yaxud türkün məsəli ilə desək, Orta Doğuda min dənə sendviç, hamburqer, hot-doq və biq-makları var idi, Azərbaycana da belə nəzərlə baxırdılar, maraqlarını təmin eləməsək bizi çoxdan beş qəpiyə satardılar. (On qəpiyə satıblar həmişə). Yəni, Səməd müəllimin xüsusi kulinariya ağlaşması qurmasına ehtiyac yox idi. Sadəcə, "deyilən söz yadigardır" və Səməd müəllim də beləcə tarixdə qaldı. İndi isə geopolitik durum lap dolaşıbdır, sendviç xarici qara qüvvələrin iştahını o qədər də açan menyu deyildir. Yeni yemək olmalıyıq. Mən təklif edərdim lülə-kabab olaq. Milli mətbəx baxımından. Ya da dana basdırması. Basqılar çoxalıb, buna işarə kimi. Ən düzgünü isə, fikrimcə, (guya bayaqdan ayrı adamın fikirlərini yazırdım) Azərbaycanı xaşıla oxşatmaq olardı. Qarışıqlıq səbəbindən.

**Elmar müəllimin başçılığı altında XİN-in fəaliyyətindən narazı adamlarımız çoxdur, ancaq onlar heç xaşıl bişiriblərmi? Asan iş deyildir. Ümumən Məmmədyarov diplomatik idarəmiz üçün hazırda ən uğurlu kadrdır. Çünki nə danışdığını kimsə anlamır. Nəticədə ruslar elə bilir rusların xeyrinə qərar verdik, farslar elə bilir farsların, yankilər isə cəhənnəmə başa düşsünlər. Beləcə, günlər aylara, aylar illərə çevrilir, əsas odur respublikamızın müstəqilliyi davam edir. Pulumuz isə elə çoxdur ki, artıq 100 manatlığın içinə yerləşmədi, ikiyüzlük kəsdik. Vaxt gələcək millət bu dövrü nostalji ilə xatırlayacaq...**



# "Hakimiyyət regionda nələrin baş verəcəyini bilir" - ekspertlər

## ABŞ-İran qarşıdurması Azərbaycanın əhəmiyyətini artırır, amma...

**Azərbaycanla həmsərhəd regionda təhlükəli proseslər başlayıb. Vəziyyətin ölkəmizdən ötrü riskliliyi həm də ondadır ki, proseslərdə qarşı duran tərəflərin, demək olar, hamısı ilə bizim ya müttəfiqlik (Türkiyə), ya strateji tərəfdaşlıq (İsrail və ABŞ) əlaqələrimiz var, ya da mehriban qonşuluq əlaqələrinə malikik (İran).**

ABŞ və İsrailin gündəmə gətirdiyi İranı neytrallaşdırmaq planı ölkəmiz üçün məxsusi perspektiv vəd eləməklə yanaşı, baş verəcək hadisələrin mümkün siyasi gəlir-çıxarını bir daha dəqiq hesablamaq zərurəti yaradır. Bir sıra siyasətçilər və siyasi ekspertlər hesab edir ki, bölgədə vəziyyətin gərginləşməsinin Azərbaycan üçün riskləri var, eyni zamanda bu proseslər ölkəmizin əhəmiyyətini artıracaq.

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər** "Yeni Müsavat"a bildirdi ki, regionda yaranmış vəziyyət çox mürəkkəbdir. Bu vəziyyət özündə çoxlu risklər, təhlükələr daşıyır. Ciddi potensial təhdidlər var: "Azərbaycan tərəfini yaranmış vəziyyət heç şübhəsiz seçim etməyə zorlayacaq. Azərbaycan təbii ki, sonuna qədər çalışacaq bütün tərəfləri qane edən addımlar atsın. Amma burda tərəflər çoxdur və getdikcə də vəziyyət gərginləşir, kəskinləşir. Belə vəziyyətdə eyni zamanda bütün tərəfləri razı salmaq obyektiv olaraq qeyri-mümkündür. Ona görə də rəsmi Bakının hansı addımları atacağını proqnozlaşdırmaq çox çətindir. Azərbaycan hakimiyyəti məlumatlıdır, regionda nələrin baş verəcəyini bilir. Əsas hədəflərdən biri bu vəziyyətdə hakimiyyəti qorumaq olacaq. Regionda vəziyyətin kəskinləşməsi ilə Azərbaycan da təhlükəli vəziyyətə gəlib çıxıb.

İranla bağlı bu ilin fevralından başlayaraq ABŞ-la Rusiya arasında çox ciddi gizli danışıqlar gedir. Mənim düşüncəm belədir ki, ABŞ-la Rusiya arasında detallı olmasa da prinsipial razılaşma əldə olunacaq. Çünki Rusiya anlayır ki, əsas hədəf bu regionda İran və Rusiyadır. Ona görə də vaxt qazanmaq üçün İran məsələsinin önə çıxmasına və vaxt qazanmağa çalışacaq. Rusiya çalışacaq ki, İran məsələsi mümkün qədər uzansın. Bunun üçün də Rusiya özü ABŞ-la birgə oyunda olmalıdır. Bu prosesdə Moskva Azərbaycanın Rusiyanın tam nəzarətinə keçirilməsinə nail olmaq istəyəcək. Ona görə də Azərbaycana həm Rusiyadan, həm də ABŞ-dan həm ehtiyac, həm də bu ehtiyacı əldə etmək üçün basqılar artacaq".

**S.Əkbər hesab edir ki, bu prosesin gedişində Ermənistan-Azərbaycan münaqişəsinin yenidən kəskinləşməsi, hərbi fazaya keçməsi gözləniləndir:** "Azərbaycana hətta şirnikləndirici təkliflər də ola bilər ki, münaqişə Azərbaycan tərəfindən alovlandırılsın. Bundan sonra isə Rusiya Ermənistanın hərbi müttəfiqi kimi prosesə hərbi müdaxilə etmək imkanı əldə etməyə çalışa bilər.

İran da Qərb onu sıxdıqca Azərbaycanı özünə daha yaxınlaşdırmağa çalışacaq. Çünki İran üçün bölgədə Azərbaycan mühüm əhəmiyyət kəsb edir".

**Deputat Elman Nəsirov** da bildirdi ki, Azərbaycanın yaxın qonşuluğunda olan İranla ABŞ-ın münasibətləri kritik həddə çatmaqdadır. Regionda son dərəcə mürəkkəb vəziyyət formalaşıb. Azərbaycan İranın qonşuluğunda yerləşən dövlətdir və ona görə də hadisələri kənar müşahidəçi statusunda izləmir. Baş verən proseslər dolayısı və ya birbaşa yolla Azərbaycana təsirsiz qalmaya bilər: "Buna görə də Azərbaycan dövlətinin prosesləri diqqətlə analiz etməsi labüddür. Azərbaycanın bu gün beynəlxalq aləmdə nüfuzu var və bu onun sayəsində baş verib ki, prezident İlham Əliyev müstəqil xarici siyasət həyata keçirir. Azərbaycan dövləti regionda yaranmış istənilən gərginliyin danışıqlar yolu ilə tənzimlənməsində maraqlıdır. Azərbaycanın bu sahədə çox yaxşı təcrübəsi də var. Rusiya və Türkiyə arasında bir neçə il öncə yaranmış gərginliyin tənzimlənməsində Azərbaycanın rolu hər kəsə bəllidir. Azərbaycan prezidenti hələ 2006-cı ildə ABŞ-da səfəri zamanı bəyan etmişdi ki, Azərbaycan dövləti öz ərazisindən hər hansı üçüncü dövlətin plastdarm kimi istifadə edib başqa bir dövlətə güc tətbiq etməsi qeyri-mümkündür, Azərbaycan buna imkan verməz. Bu, Azərbaycanın qətiyyətli mövqeyidir. Azərbaycanın ABŞ-la strateji tərəfdaşlıq münasibətləri var. Eyni zamanda İranla da strateji tərəfdaşlıq münasibətlərimiz var. Azərbaycan tərəfi dəfələrlə sübut edib ki, onun siyasəti heç bir üçüncü tərəfi hədəfə almayıb. Azərbaycanın ABŞ-la əlaqələrinin inkişafı İran əleyhinə yönəlməyib. Eyni zamanda Azərbaycanın İranla münasibətlərinin inkişafı ABŞ əleyhinə deyil. Hər iki ölkənin paytaxtında bunu bilirlər. Şübhəsiz ki, regionda gedən böyük geosiyasi proseslərdə Azərbaycanın həm ABŞ, həm İran, həm də Rusiya üçün əhəmiyyəti daha da artacaq".

**Deputat vurğuladı ki, Azərbaycan İranla ABŞ arasında yaranmış gərginliyin beynəlxalq hüquq çərçivəsində həllində, eyni zamanda hadisələrin drammatikləşməsinin qarşısının alınması üçün beynəlxalq tədbirlərin görülməsində maraqlıdır. Vaşinqtonla Tehran arasında yaranmış gərginliyi də aradan qaldırmaq üçün əgər tərəflər bunda maraqlı olsalar Azərbaycanın vasitəçilik imkanları unikaldır. Hadisələrin istənilən inkişaf ssenarisinə Azərbaycan hazır vəziyyətdə olmalıdır...**

❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"

YENİ MÜSAVAT
N 115 (7004) 26 may 2018

# Dünyanın aparıcı şirkətlərinin rəhbərləri Bakıya gəlir




## Beynəlxalq Xəzər Neft və Qaz “Caspian Oil and Gas” sərgi və konfransı öz 25 illik yubileyini qeyd edir

**Bu il Xəzər regionunda enerji sektorunun ən böyük tədbiri - Beynəlxalq Xəzər Neft və Qaz “Caspian Oil & Gas” sərgi və konfransı öz 25 illik yubileyini qeyd edir. Sərgi 29 may - 1 iyun tarixində Bakı Ekspo Mərkəzində keçiriləcək. Hər il keçirilən “Caspian Oil and Gas”, əsas neft-qaz layihələrinin müzakirəsi, həmçinin neft və qaz hasilatı, emalı, nəqliyyat, logistika və xidmət sahələrində qabaqcıl texnologiyaların nümayiş etdirmək üçün ən yüksək səviyyəli rəhbər və mütəxəssisləri bir araya gətirir.**

Bu il konfransda aparıcı şirkətlərin 500-dən çox ali rəhbərləri, eləcə də sənaye nazirliklərinin nümayəndələri və nüfuzlu sənaye mütəxəssisləri bir arada toplaşacaq və neft-qaz sənayesinin inkişafı üzrə aktual məsələlər xüsusunda fikir mübadiləsi aparacaqlar.

Sərginin işgüzar proqramını müşayiət edən və mayın 30-31-də keçiriləcək Beynəlxalq “Caspian Oil & Gas” konfransı builki tədbirin mühüm bir hissəsini təşkil edir. Regionda neft-qaz sənayesinin əsas tədbiri olan konfrans, hər il Xəzəryanı regionun əsas neft-qaz layihələrinin müzakirəsi və enerji təhlükəsizliyinin təmin olunması məqsədi ilə ən yüksək səviyyəli rəhbər işçilərini bir araya gətirir.

Konfransda “Neft və qaz sənayesində qlobal və iqtisadi perspektivlər - neftin qiyməti və böhran şəraitində mövcud olan imkanlar”, “Son 25 ildə Xəzər dənizinin Azərbaycan sektorunda həyata keçirilən neft-qaz əməliyyatları: keçmişi, bu günü və gələcəyi. Azərbaycan neft və qaz sənayesi üçün yeni impuls”, “Neft və qaz layihələrinin maliyyələşdirilməsi və yatırılan investisiyalar müqabilində xalis gəlirin təmin edilməsi - iddialar və imkanlar”, “Yerli geoloji kəşfiyyatda əldə olunan yeniliklər, perspektivlər”, “Hasilatda olan yeniliklər”, “Energetika təhlükəsizliyi”, “Neft qaz emalında olan yeniliklər, beynəlxalq əməkdaşlıq”, “Xəzəryanı layihələr üzrə yeni imkanlar”, “Xəzər regionu üzrə Azərbaycanın güclü tərəfləri: dəmir yolu, dəniz nəqliyyatı və magistral boru kəməri”, “Ekoloji və sənaye təhlükəsizliyi sahəsində qabaqcıl texnologiyalar. Konkret faktların təhlili”, “Neft emalı və neft-kimya sənayesinin perspektivləri. Cari vəziyyət və gələcək perspektivlər”, “Neft emalı və neft-kimya sənayesi üçün texniki xidmət əməliyyatlarının əhəmiyyəti. Konkret faktların təhlili”, “İnqilabi dəyişiklər. İnnovativ rəqəmsal texnologiyaların sənayeyə olan təsiri” adlı mövzular müzakirəyə olunacaq.

Konfransın sponsorları SOCAR, BP, “Petronas”, “Statoil”, “Inpex”, “McDermott”, EGS, EY, “Dentons”, “Lamor Corporation”, “Nobel Upstream”, SOCAR AQS, “Total”, “Turkish Petroleum” şirkətləridir.

**Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban** deyir ki, indiyədək keçirilmiş 25 neft-qaz sərgisinin 24-də iştirak edib: “Sərgi - şirkətlərin məhsullarının və ekspontlarının nümayiş olunduğu bir məkandır. Xaricdə 125 ildir ənənəvi avtomobil sərgiləri keçirilir, bir il az, o biri il çox, digər il daha az şirkət gəlir. Ancaq sərginin əhəmiyyəti bununla ölçülmür. Əsas meyarı bir müstəvidir ki, orada həmin sahənin adamları toplaşır. O sərgi əhəmiyyətli sayılır ki, orada yeniliklər haqda məlumatlar verilir və ya şirkətlər bazara öz yeni mallarını təklif edirlər. İstər Kaliforniyada olsun, istər Afrikada - məzmun eynidir”.

**Mütəxəssisin dediyinə görə, Xəzəryanı ölkələrin hamısında illik ənənəvi neft-qaz sərgi-konfransları keçirilir:** “Azərbaycanda keçirilən sərgi xüsusilə maraqlı olur, əsasən də konfrans hissəsi. Çünki Xəzərin istər neft, istərsə də qaz yataqlarının istər sovet zamanı, istərsə də müasir dövrdə işlənməsi məhz Azərbaycanla bağlıdır. Buraya ən çox investisiya qoyulur, burada ən mürəkkəb texnologiyalar tətbiq edilir, burada ən unikal tikinti-mühəndis layihələrinin icrasına rast gəlmək olar. Bu isə hamını cəlb edir. Mən fikir vermişəm, Rusiya kimi neft-qaz ölkəsinin şirkətləri necə maraqla bizim sərgilərdə iştirak edirlər. Çünki Azərbaycanda olan bir sıra yeniliklər onlarda hələ tətbiq edilməyib. Necə deyərlər gör-götür dünyasıdır”.

**Onu da qeyd edək ki, yubiley sərgisində 38 ölkədən 312 neft-qaz şirkəti iştirak edəcək. Belarus, İtaliya və Rusiya tədbirdə milli qruplarla təmsil olunurlar. Builki sərginin tərkibi tədbir iştirakçılarının 20 faizini təşkil edən yeni şirkətlər sayəsində daha da genişlənib. Həmçinin sərgi iştirakçılarının 30 faizini təşkil edən yerli şirkətlər arasında da debütantlar var.**

❑ **DÜNYA,**
**“Yeni Müsavat”**

## Rusiyanın “5-ci kolon”u yığışdırılır - ermənilər təlaşda



# Qarabağ cəbhəsində Bakının önü açılır!

## Yeni baş nazirin ordu rəhbərliyindəki son kadr təyinatı Kremlin qəzəbini daşıra bilər; Paşinyan Putinə “əlcək” atır? “Moskvanın cavabı gecikməyəcək, tezliklə Qarabağ cəbhəsində Bakının önü açılacaq” - erməni nəşrindən SOS

**Ermənistanda 8 may hakimiyyət çevrilişindən sonra vəziyyət qeyri-müəyyən olaraq qalır. Bunun əsas səbəbi köhnə komandanın - “Qarabağ klanı”nın bir sıra dövlət strukturlarının müxtəlif pillələrində hələ də öz mövqeyini saxlaması, parlament çoxluğunun sabiq prezident Serj Sərkisyan partiyasında qalmasıdır. Yen baş nazir Nikol Paşinyan hələlik yalnız kadr təyinatları ilə situasiyanı öz xeyrinə dəyişib xalqa vəd elədiyi islahatları həyata keçirmək, növbədənkənar, azad və ədalətli seçkilər keçirmək niyyətindədir.**

Onun yüksək vəzifələrə təyin elədiyi kadrlar isə əsasən Amerika və ya Qərbyönlü şəxslərdir. Bunlar - xarici işlər, müdafiə, iqtisadi inkişaf, mədəniyyət, kənd təsərrüfatı nazirləri, habelə Təhlükəsizlik Şurasının katibidir. Bütün bunların ardınca sрağagün Paşinyanın israrlı təkidi ilə Baş Qərargah rəisi Movses Akopyan vəzifəsindən qovulub. Prezident Armen Sərkisyanın sərəncamı ilə onun yerinə Müdafiə Nazirliyinin idarə rəisi Artak Davtyanı təyin edilib.

*****

“Yeni Müsavat” xatırladır ki, Xocalı hərbi canilərindən olan Movses Akopyan *(Xankəndindəki 366-cı alayın komandirlərindən olub)* qarabağlıdır və Serj Sərkisyana yaxın adamlardandır. Təsadüfi deyil ki, məhz Sərkisyanın prezidentliyi dövründə o, separatçı rejimin “müdafiə naziri” vəzifəsindən Ermənistanın Baş Qərargah rəisi postuna gətirilmişdi. Ən əsası, Rusiyada hərbi təhsil alan Akopyan Moskvaya sadiq və bağlı bir adam, Rusiya “5-ci kolon”unun Ermənistan Müdafiə Nazirliyi sistemindəki ən etibarlı şəxsi və təsir agenti sayılırdı.

Yəni qənaət hasil olur ki, qərbyönlü baş nazir Nikol Paşinyan və qərbmeyli prezident Armen Sərkisyan birləşib həm də Rusiyanın Ermənistandakı təsir agentlərini, “5-ci kolonu”nu sıradan çıxarmaqla məşğuldur. Bu isə Kremlin ayağını tapdamaq, daha dəqiqi, ona əlcək atmaq, meydan oxumaq kimi bir şeydir və cavabı yəqin ki, olacaq.

Artıq bu xüsusda yerli erməni KİV-ləri həyəcan təbili çalmağa başlayıb.

*****

“Məsələ ondadır ki, Ermənistanda heç kimə sirr deyil ki, burada Rusiyanın maraqlarına xidmət edən nüfuzlu və çoxsaylı "5-ci kolon" fəaliyyət göstərir. Son illər Moskva sanki erməni cəmiyyətində anti-Rusiya ovqatının güclənəcəyini hiss edərək, ikiqat güclə öz agentlərini bütün dövlət strukturlarında, ilk növbədə də Müdafiə Nazirliyində, KİV-lərdə yerləşdirib ki, geniş əhali təbəqələrinə təsirini artırsın".

**"Yeni Müsavat" xəbər verir ki, bu barədə qərbyönlü erməni portallarından sayılan armenianreport.com-dakı məqalədə deyilir.**

Məqalədə ardınca bildirilir: "Movses Akopyan Rusiyanın Ermənistan hərbi dairələrindəki "5-ci kolon"un nüfuzlu üzvlərindəndir. Hətta demək olar ki, dünənədək o, Baş Qərargahdan Yuru Xaçaturovun, Aytaz Baqmanyanın və Tiqran Parvanyanın uzaqlaşdırılmasından sonra orada rusların axırıncı iri alətləri idi. Yeri gəlmişkən, adı çəkilən hər üç şəxsi Moskva özünün kurasiyasında olan hərbi-siyasi təşkilatlarda isti yerlərə düzəldib *(Xaçaturov hazırda KTMT-nin baş katibidir - YM)*. Yəni Kreml bununla göstərib ki, özünün "5-c kolonu"nu hətta onlar postlarından məhrum olandan sonra da atmır. Akopyan isə görünür suda batmaz imiş ki, hələ də vəzifədə qalırmış. Axı, kim Moskvanın kadrını qovmağa cürət edər? Ancaq budur, Paşinyan elan edir ki, Movses Akopyan tutduğu vəzifədən azad olunub".

**Nəşr bu qərarın Paşinyanın Soçidə Putinlə görüşündən sonra verilməsinə xüsusi diqqət çəkir:** "Baş nazirin bu hay-küylü qərarı onun Soçidə hamımızın gördüyü kimi, Putinə necə yaltaqlanmasından, Ermənistanın KTMT və Avrasiya Birliyində qalacağı ilə bağlı verdiyi vədlərdən sonraya təsadüf eləməsi xüsusilə gözlənilməzdir. Ancaq görünür, baş nazirin ətrafındakılar başa düşüblər ki, Akopyanın Baş Qərargah rəisi vəzifəsində saxlanması yeni hakimiyyət üçün olduqca təhlükəlidir və o, Ermənistanın NATO ilə yaxınlaşmasına yönəlik istənilən cəhdinə zərbə vuracaq. Odur ki, riskə gedib onu bu vəzifədən götürdülər".

**Məqalədə bundan sonra Rusiyanın Paşinyan hökumətinə qarşı mümkün davranışından bəhs edilir:** "Əlbəttə ki, Moskva Paşinyanın "onun əsas adamını" strateji əhəmiyyətli Baş Qərargahdan qovulmasına görə qəzəbli olacaq. Nədən ki, "ordunun beyni" üzərində nəzarət Ermənistanın bütün silahlı qüvvələrinə nəzarət imkanı verir. O da aydındır ki, Rusiya erməni hökumətinin bu kadr dəyişikliyini cavabsız qoymayacaq".

Yazıda Kremlin mümkün kontur-cavabı kimi Moskvanın Qarabağ cəbhəsində Bakının önünü aça biləcəyinə işarə edilir. "Artıq yaxın günlərdəcə Bakı ilə Moskva arasında növbəti "bal ayı"nı gözləmək olar - hətta Azərbaycan hücuma sövq edilə bilər", - deyə məqalədə təlaşla qeyd olunur.

*****

**Şərhdən də göründüyü kimi, Paşinyanın baş nazirliyi Ermənistana təkcə mifik daxili islahat deyil, eyni zamanda Rusiya ilə münasibətlərdə kritik həddə çata biləcək gərginlik, hətta qırılma nöqtəsi vəd edir. Müşahidələr göstərir ki, bu minvalla həmin qırılma nöqtəsi uzaqda olmayacaq. Çünki gec-tez Nikol Paşinyan "ya göründüyü kimi olmaq, ya da olduğu kimi görünmək" zorunda qalacaq...**

❑ **"Yeni Müsavat"ın**
**analitik xidməti**

YENİ MÜSAVAT
N 115 (7004) 26 may 2018

# Bakının iki mübhəm ərazisi: "Sovetski" və Bayıl yamacı...

## Hər iki ərazidə sakinlər köçürüləcəkləri günü gözləyirlər, müvafiq qurumlardan isə hərəkət yoxdur



### Dövlət idarələrinin rəsmiləri təhlükəli yola baxış keçirdilər

"Artıq 5 ildən çoxdur ki, bu məsələ problem olaraq qalır və müzakirə edilir"

**Mətbuat işçilərinin Bibiheybətdə - Yeni Salyan yolu 22 ünvanında tikilmiş yaşayış binaları yol probleminə görə təhlükəli zona hesab olunur. Binaların yanından keçən magistral yolda qarşı tərəfdəki dayanacağa getmək üçün sakinlər ya sürətlə qaçmalı və ya maşınların azaldığı vaxtı gözləməlidirlər. Əks təqdirdə kimisə maşın vura bilər.**

Problemin dəfələrlə işıqlandırılmasından sonra müvafiq qurumlar əraziyə baxış keçiriblər.

Bu barədə bina sakini, **"Avtosfer.az"ın redaktoru Elməddin Muradlı** Modern.az-a danışıb. O bildirib ki, qeyd edilən məsələnin yaxın zamanlarda həllinə ümid edilir: "Məsələnin lap tezliklə həll olunması gözlənilmir. Amma problemin işıqlandırılmasının bir nəticəsi olub. Daxili İşlər Nazirliyinin, Baş Dövlət Yol Polisi İdarəsinin rəhbərliyi, bununla bağlı göstəriş veriblər ki, məsələ dərhal nəzarətə götürülsün. Mayın 24-də əraziyə baxmağa gələnlər arasında Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Bakı Nəqliyyat Agentliyinin nümayəndələri, o cümlədən Dövlət Yol Polis İdarəsindən hərəkətin təşkili şöbəsinin rəisi, polkovnik Taləddin Axundov vardı".

**E.Muradlı qeyd edib ki, qurum nümayəndələri bir sıra məsələləri müzakirə ediblər:** "Onlar əraziyə baxış keçirdilər, alternativ yol, işıqforun, avtobus dayancaqlarının qoyulması, piyada keçidinin çəkilməsi məsələsini müzakirə etdilər. Və öz aralarında qurumların rəhbərliyinə məlumatın verilməsi barədə razılığa gəlindi. Yəni məsələ DYP, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi və BNA rəhbərliyinə məruzə olunacaq. Bundan sonra hansı qərar qəbul edilsə, ona uyğun addım atılacaq. Bizə dedilər ki, problem ən qısa zamanda həll olunmalıdır. Çünki artıq 5 ildən çoxdur ki, bu məsələ problem olaraq qalır və müzakirə edilir. Ümid edirik, yaxın zamanlarda problem həllini tapacaq".

**Hazırda Bakıda söküntü və sürüşmə baxımından iki ərazi gündəmdədir. Onlardan biri Bayıl yamacı, digəri isə illərdir ki, söküntü-tikinti işlərinin aparıldığı "Sovetski" kimi tanınan məhəllədir.**

Hər iki ərazidə əhalinin köçürülməsi məsələsi də gündəmə gətirilib. Lakin həm "Sovetski"də, həm də Bayıl yamacının sürüşmə zonasında yaşayanların bir qismi köçürülsə də, xeyli sayda ailənin kompensasiya alaraq ərazidən çıxarılması işi yubanır.

Öncə Bayıl yamacında Buxta küçəsindəki vəziyyəti öyrənmək üçün sakinlərlə əlaqə saxladıq. Sakinlər "Yeni Müsavat"a bildirdilər ki, hazırda ərazidə hər hansı bir sürüşmə hadisəsi baş vermir. Onlar söylədilər ki, sonuncu sürüşmə hadisəsində dağılan evlər də artıq sökülüb: "Müvafiq qurumlar gəlib, əvvəlcə kommunal xətləri kəsdilər. Daha sonra isə sürüşmə baş verən ərazinin xəttini ayırıb, bağladılar. Digər camaatın isə kommunal xidmətlərini bərpa etdilər. Camaat indi də bu ərazidə yaşamağa davam edir. Təhlükəni hər birimiz dərk edirik. Ancaq bizə köçürülmə ilə bağlı heç bir təklif edilməyib. Yuxarıdakı evlərin, yağışın, kanalizasiyanın suyu hamısı vurur yamacdakı evlərə. Ona görə də burada həm də nəmişlik əlindən çətinlik çəkirik. İllər öncə belə deyildi. Heç olmasa nəmişlik olmurdu. İndi isə vəziyyət daha da acınacaqlıdır" deyə, sakinlər bildirdilər.



Əvvəllər də sakinlərlə söhbət etdiyimiz zaman onlar dəfələrlə bu barədə şikayətləniblər ki, ərazidə nəmişlikdir, evlərinin divarları getdikcə aşınmaya məruz qalır. Ancaq hələ ki dövlət tərəfindən onlara yardım məqsədilə hansısa addım atılmayıb...

Ərazidəki mövcud vəziyyətlə bağlı daha detallı məlumat almaq üçün **Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Xidmətinin geoloji planlama ekspedisiyasının rəisi Əziz Qaralov** əlaqə saxladıq. Ə.Qaralov "Yeni Müsavat"a bildirdi ki, Bayılda Buxta küçəsi 9 ünvanında sürüşmə, çökmə olan ərazilərdə ümumilikdə 11 mayak qoyulub: "Bizim apardığımız müşahidələr görə, vəziyyət həmin ərazidə stabildir. Yəni qoyduğumuz mayakların heç birində vizual olaraq dəyişiklik yoxdur".



Onu da qeyd edək ki, ərazidə inşa edilən 16 mərtəbəli binanın da uçma təhlükəsi olması ilə bağlı məlumatlar yayılıb. Eyni zamanda, ərazidə olduğumuz zaman sakinlər də bildirirdilər ki, binanın divarlarında çatlar yaranıb və bəzi yerlərdə bu çatlar daha da böyükdür.

**Əziz Qaralov isə bildirdi ki, hazırda 16 mərtəbəli bina ilə bağlı hansısa təhlükə mövcud deyil:** "16 mərtəbəli bina ilə bağlı təhlükə yoxdur. Ancaq həmin binanın yanında yardımçı tikili var. Tökmə torpağın üzərində tikildiyi üçün ərazidə çökmə baş verib. Həmin tikili də bunun nəticəsində divardan aralanıb. Ancaq yaşayış binasının özündə hansısa təhlükə yoxdur. Biz orada yaşayan sakinlərlə də söhbət etdik. Sakinlər bildirdilər ki, otaqlarda hansısa çat müşahidə olunmur. 16 mərtəbəli bina yaşayış binasıdır. Amma yanında yeni inşa edilən bina alış-veriş binası kimi tikilib".

Xatırladaq ki, Bayıl yamacındakı Buxta 9 ünvanında yerləşən yaşayış evlərində sürüşmə mayın 3-də başlayıb, mayın 14-15-də isə proses artıq fəallaşıb. Nəticədə 3-4 ev tamamilə dağılıb, 20 ev isə təhlükə zonasında yerləşir. Ərazidən 22 ailə köçürülüb.

Bu ilin qış aylarında Bayıl yamacında "Teleqüllə" ətrafındakı sürüşmə zonasında da aktivlik müşahidə olunmuşdu. Nəticədə orada da 4 ev dağılıb, 2-si isə zərər görmüşdü. Hazırda bu ərazidə bütün kommunal xidmətlərin verilişi dayandırılıb. Əhali isə 11 aylıq müddətə ərazidən köçürülüb. Lakin onların bir qismi verilən kirayə pulu ilə razılaşmadığı üçün evlərində yaşamaqda davam edirlər. Bu ərazinin də taleyi hələ ki birmənalı olaraq bəlli deyil.

**Ərazi ilə bağlı Əziz Qaralov aşağıdakıları bildirdi:**

"Həmin ərazidə vəziyyətlə bağlı apardığımız işləri yekunlaşdırırıq. Çox güman ki, növbəti ayın 10-na qədər hazırladığımız hesabatı müvafiq orqanlara təqdim edəcəyik. Yəni bizim tədqiqat işlərinin nəticəsi məlum olacaq. Orada da vəziyyət stabildir. Hər gün qoyduğumuz mayaklara baxıb, araşdırmalar aparırıq. Lakin sürüşmə müşahidə etmirik".

"Sovetski" ərazisində də söküntü-tikinti işləri aparılır. Bu ərazidə də yaşayan sakinlər köçürüləcəkləri günü gözləyirlər. Çünki yaşadıqları evin yaxınlığında aparılan tikinti işləri onların həm rahatlığını pozur, həm də hər gün tozlu küçələrdən keçməyə, çirkli hava udmağa məcbur olurlar.

"Sovetski" ərazisindən köçürmənin birinci mərhələsi 2017-ci ilin avqustunda başa çatıb. Bu prosesdə 4 min 300 ailə ərazidən çıxarılıb. Həmin ərəfədə bir neçə sakin etiraz etsə də sonda onlar da verilən 1500 manat kompensasiya ilə razılaşıb, evlərini tərk ediblər. Hazırda həmin sakinlər Bakının müxtəlif yerlərində məskunlaşıblar. Həmin köhnə evlərin yerində isə park salınır.

2018-ci ilin əvvəlində sakinlərə evlərinin söküləcəyi ilə bağlı bildiriş paylanıb. Lakin hələ ki, "Təzə Pir" məscidinin yuxarı hissəsində, Nəriman Nərimanov prospekti ilə İsmayıl bəy Qutqaşınlı küçələri arasındakı evlərin nə zaman söküləcəyi bəlli deyil.

Ötən ayın əvvəlində baş nazirin müavini olarkən Abid Şərifov "Real" televiziyasına açıqlamasında bildirmişdi ki, "Sovetski"də söküntü işlərinin davam etdirilməsi üçün vəsait ayrılıb. O bildirmişdi ki, bu il və gələn il 2500-ə yaxın evin sökülməsi nəzərdə tutulub: "Böyük ehtimalla aprelin sonu mayın əvvəlində söküntü işlərinə başlanılacaq. Söküntü işlərinin aparıldığı ərazilərdə yol çəkiləcək, yaşıllıq və park salınacaq. Başqa işlərdən söhbət gedə bilməz",-deyə Abid Şərifov bildirmişdi. Ancaq ötən günlər ərzində xeyli "başqa işlər" oldu. Aprel ayı da bitdi, Şərifov da vəzifədən getdi. Təkcə dəyişməyən "Sovetski"dəki vəziyyətdir...

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Paşinyan Rusiyanın adamlarını qovur, silahlarından isə imtina etmir - nonsens

## İşğalçı ölkənin yeni rəhbərliyindən Qarabağla bağlı ziddiyyətli addımlar; Ermənistanda hakimiyyət dəyişikliyi Azərbaycan-Türkiyə müttəfiqliyinin önəmini artırıb; **politoloq:** "Paşinyan üçün indi ən böyük təhlükə hərbi əməliyyatların başlanmasıdır..."

**Dağlıq Qarabağ ətrafında qeyri-müəyyənlik, daha doğrusu, nə hərb, nə də sülh vəziyyəti davam edir. Bu durumun danışıqlarda diplomatik həmlə ilə müsbətə dəyişəcəyini söyləmək hər gün bir qədər də çətinləşir. Əsas səbəb Ermənistanda hakimiyyət dəyişikliyinin hələ də başa çatmamasıdır. İşğalçı ölkədə növbədənkənar parlament seçkilərinin startı verilsə, - bu, hər halda labüd görünür, - o zaman sülh danışıqlarında durğunluq dövrü bir az da uzanacaq. Deməli, müharibə riski artmış olacaq.**



Elçin Mirzəbəyli

Mövcud durumda Azərbaycanın yeganə çıxış yolu əlverişli fürsət yetişənə kimi öz ordusunun potensialını və döyüş qabiliyyətini durmadan artırmaq, strateji müttəfiq və tərəfdaş ölkələrlə əlaqələrimizi daha yüksək səviyyəyə qaldırmaq, Qarabağla bağlı beynəlxalq meydançalarda təbliğat işini gücləndirməkdir. Söhbət öncəliklə qardaş Türkiyə ilə əlaqələri bir az da sıxlaşdırmaqdan gedir.

*****

Nə xoş ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bu arada Azərbaycan torpaqlarının işğaldan azad edilməsi məsələsini özünün "Seçki Bəyannaməsi"nə daxil edib. Belə ki, mayın 24-də o, Ədalət və İnkişaf Partiyasının (AKP) "Seçki Bəyannaməsi"ni açıqlayıb. "Azərbaycan torpaqlarının işğaldan azad edilməsi istiqamətində fəaliyyətimizi davam etdirəcəyik" - sənəddə vurğulanır.

Sözsüz ki, Türkiyədə iyunun 24-də hansı siyasi qüvvənin qalib gəlməsindən asılı olmayaraq, iki qardaş ölkə arasında strateji müttəfiqlik əlaqələri, o sırada hərbi və hərbi-texniki sahədə əməkdaşlıq dərinləşməkdə davam edəcək, Dağlıq Qarabağ məsələsinə vahid baxış qorunub saxlanacaq. İyunun 26-da Bakıda silahlı qüvvələrimizin yaradılmasının 100 illiyi ilə balı keçiriləcək möhtəşəm hərbi paradda Türkiyə şahinlərinin iştirakı bunun növbəti, əyani təzahürü olacaq.

Azərbaycan-Türkiyə sarsılmaz qardaşlığı və müttəfiqliyi, Qarabağ məsələsində dəyişməz ortaq mövqe işğalçı Ermənistanda hakimiyyət dəyişikliyi və oradan səslənən, eləcə də Naxçıvanla bağlı olan avantürist bəyanatlar və hərəkətlər fonunda aydın bir xəbərdarlıq mesajı olmaqla, məxsusi önəm kəsb edir və düşmən ölkənin rəhbərliyindəki yeni qaynar başlar üçün "soyuq duş" effekti verəcək.

*****

Yeri gəlmişkən, Ermənistanın baş naziri Nikol Paşinyan orduda da ciddi kadr dəyişikliyinə girişib. Onun təklifi ilə Baş Qərargah rəisi Movses Akopyan vəzifədən qovulub. Prezident Armen Sərkisyan Akopyanın yerinə nazirliyin idarə rəisi Artak Davtyanı təyin edib.

Məlumat üçün bildirək ki, Xocalı hərbi canilərindən sayılan Movses Akopyan qarabağlıdır və keçmiş prezident Serj Sərkisyana yaxınlığı ilə tanınırdı. Elə onun dövründə də separatçı rejimin "müdafiə naziri" vəzifəsindən Ermənistanın Baş Qərargah rəisi postuna gətirilmişdi. Akopyanın Moskvanın adamı olması haqqında da məlumatlar var idi.

"Akopyanın istefaya göndərilmə səbəbi Ermənistan silahlı qüvvələrində "Qarabağ sindromu"nu aradan qaldırmaqla bağlı ola bilər". Bu sözləri Axar.az-a açıqlamasında analitik Elçin Mirzəbəyli Movses Akopyanın işdən azad edilməsi qərarına münasibət bildirərkən deyib.

"Akopyan Serj Sərkisyandan daha çox Rusiyanın adamıdır. Əgər belə olmasaydı, Rusiya Azərbaycan ərazilərinin işğalında iştirak etmiş və separatçı rejimin qanunsuz hərbi birləşmələrinə rəhbərlik edən Akopyanın 2002-ci ildə Moskvada yerləşən Frunze adına Hərbi Akademiyada təhsil almasına imkan yaratmazdı. Bu faktın özü həm də Rusiyanın Azərbaycanın işğal olunmuş ərazilərində formalaşdırılmış qeyri-qanuni rejim üçün hərbi kadrlar hazırladığını sübuta yetirir", - deyə politoloq qeyd edib.

Akopyanın Xocalı soyqırımının həyata keçirilməsinin əsas icraçılarından olan 366-cı alayın rəhbərlərindən biri olmasını xatırladan ekspert daha sonra deyib: "Xocalı soyqırımından təxminən 10-15 gün sonra alayı tərk edib. O, azərbaycanlılara qarşı törətdiyi vəhşiliklərə görə Ermənistan ordusunda xüsusi statusa malikdir və bu status siyasi rəhbərliyi ciddi şəkildə narahat edir".

Analitik vurğulayıb ki, Akopyan hərbi çevrilişi həyata keçirə biləcək əsas fiqurlardan biri sayılırdı: "İstisna deyil ki, məhz bu təhlükə onun istefaya göndərilməsi üçün zəmin yaradıb. Akopyan Ermənistan silahlı qüvvələrində Azərbaycan torpaqlarının işğalı prosesində iştirak edən və ən yüksək postda təmsil olunan fiqur sayılırdı. O istefaya göndərildikdən sonra prosesin daha aşağı pillələrdə davam etdirilməsi ehtimalı da var. Paşinyanın Akopyanı istefaya göndərməsinin səbəblərindən biri də ikincinin təmas xəttində, yaxud sərhəd bölgəsində genişmiqyaslı təxribata əl atması ola bilər. Çünki Paşinyan üçün bu gün ən böyük təhlükə hərbi əməliyyatların başlanması perspektividir. Bu, Paşinyanın hakimiyyətinə son qoya və Qarabağ klanının mövqelərini möhkəmləndirə bilər".

*****

Amma maraqlı burasıdır ki, Rusiyanın adamlarını bir-bir yüksək vəzifələrdən uzaqlaşdıran, həlledici vəzifələrə (müdafiə, xarici işlər nazirləri, Təhlükəsizlik Şurasının katibi və s.) isə qərbyönlü və amerikapərəst kadrları gətirən N.Paşinyan o biri yandan rus silahlarını həvəslə almağa çalışır. Söhbət "TOR" raket sistemlərindən gedir. Belə ki, iki gün öncə Paşinyan parlamentdə çıxışı zamanı bu sistemlərdən də danışıb. Deputatların həmin sistemlərin əldə olunması haqqında razılığın nə zaman imzalanacağı ilə bağlı sualına isə Paşinyan "bu məlumat məxfidir" cavabını verməklə kifayətlənib.

**Buradaca xatırladaq ki, mayın 14-dəki Soçidə prezident Vladimir Putinlə görüşü zamanı da Paşinyan Moskvada 9 may hərbi paradı zamanı nümayiş etdirilən müasir rus silahlara işarə vuraraq, Ermənistana da belə silahlardan veriləbiləcəyinə ümid ifadə eləmişdi. Moskva isə hələ ki Paşinyana şübhəli nəzərlərlə baxır, onu səbirlə izləyir. Görünür, kritik məqamı - yəni erməni baş nazirin "qırmızı xətt"i keçib-keçməyəcəyini gözləyir. İşğalçı ölkənin Avrasiya İqtisadi Birliyini və KTMT-ni tərk edib, Qərbə üz tutması perspektivini nəzərdə tuturuq.**



## "Ermənilərin bu təklifi gülməlidir..." - Elmar Məmmədyarov

**"Həmsədrlərin iyun ayında İrəvana səfəri onlar üçün ona görə vacibdir ki, gedib oradakı vəziyyətlə tanış olsunlar və fikir mübadiləsi aparsınlar". Musavat.com-un məlumatına görə, bu sözləri xarici işlər naziri Elmar Məmmədyarov bildirib. Nazir deyib ki, danışıqların istiqaməti bilinsə də, İrəvana səfərdən sonra həmsədrlər danışıqları hansı yollarla davam etdirməyi təklif edəcəklər.**

"Həmsədrlərin bu dəfə Azərbaycana səfəri nəzərdə tutulmayıb. Əvvəlcə Ermənistana gedib yeni hakimiyyətlə tanış olmalıdırlar. Kimlə danışacaqlarını və kimlə işləyəcəklərini bilməlidirlər. Onların ağlında nə olduğunu öyrənsinlər. Bu, həmsədrlər üçün vacibdir", - deyə nazir qeyd edib. XİN başçısının sözlərinə görə, vasitəçilər tərəfindən Ermənistan və Azərbaycan XİN başçılarının görüşü təklif edilsə də, hələ tarix və görüş yeri müzakirə edilməyib.

Nazir separatçı rejimi birbaşa danışıqlara qoşulmasının vacibliyi ilə bağlı erməni tərəfinin bəyanatlarına da münasibət bildirib. "Ermənistan rəhbərliyi separatçı Dağlıq Qarabağ nümayəndələrinin danışıqlar prosesində iştirakını təklif edirsə, deməli, sülh prosesini öldürmək istəyir. Həmsədrlərlə bu yaxınlarda Parisdə keçirilən görüşdə bu məsələ müzakirə edilib. Onlara da söylədim ki, belə bir təklif gülməlidir", - deyə Məmmədyarov əlavə edib.

YENİ MÜSAVAT
N 115 (7004) 26 may 2018

# Ərdoğan Qüdsə "Müsəlman NATO-su" göndərmək istəyir

## Üç milyon canlı qüvvəsi olan ordu Fələstinə göndərilə bilərmi?

**Türkiyə Fələstinə ordu göndərilməsi təklifi ilə çıxış edib. İlk dəfə bu barədə prezident Ərdoğan ötən həftə İstanbulda keçirilən Qüds toplantısında açıqlama verib. Ərdoğan deyib ki, müsəlman aləmi Fələstində öldürülən günahsız insanlara sahib çıxmalı, onları İsrail təcavüzündən qorumaq üçün ordu göndərməlidir.**



Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu yerli mediada yayılan açıqlamasında bildirib ki, ilk dəfə olaraq müsəlman aləmi qərar qəbul edib, Fələstin sakinləri və Qüds şəhərini qorumaq üçün bölgəyə beynəlxalq sülhməramlı qüvvələr göndəriləcək. **Sitat:** "Və təbii ki, bunu beynəlxalq ictimaiyyətlə birlikdə edəcəyik. Çünki bu sadəcə, müsəlmanların dərdi deyil. Üç səmavi dinin və səmavi dinlərə inananların problemi və məsuliyyətidir".

*Doğrudur, Çavuşoğlu düzəliş edərək Qüdsə beynəlxalq güc göndəriləcəyini bildirib. Ancaq həm o, həm də prezident Ərdoğan müsəlman aləminin Qüdsə qüvvə göndərəcəyini bildirib. Söhbət hansı qüvvədən gedir? Müsəlman aləminin birləşdiyi hərbi alyans varmı? Və bu alyans İsrail ərazisinə daxil ola bilərmi?*

Əvvəlcə ondan başlayaq ki, bu təklif yeni deyil, daha əvvəl də belə bir iddialarla çıxış edənlər vardı. Hətta bir qədər əvvəl Qərb mediası da müsəlman hərbi alyansının İsrailə hücuma hazırlaşdığı haqda yazılar dərc edib. Ancaq müsəlman ölkələrinin hərbi alyansının olması və onun İsrail ərazilərinə yeridilməsi ciddi bir mübahisə mövzusu ola bilər. Əvvəlcə müsəlman ölkələrinin hərbi koalisiyası haqda öyrənək.

Müsəlman ölkələrinin hər alyansı, bir zamanlar hətta "Müsəlman NATO-su" adı verilən hərbi koalisiya 2015-ci il noyabrın sonlarında Səudiyyə Ərəbistanının paytaxtı ər-Riyad şəhərində elan edilib. Hərbi Koalisiyaya Pakistanın keçmiş ordu komandanı Rahil Şərif rəhbərlik edəcəyi elan olunub. Eyni zamanda ər-Riyadda İslam ölkələri koalisiyasının müdafiə nazirlərinin ilk yığıncağını keçirib. 41 ölkənin təmsil olunduğu toplantıya Səudiyyə Ərəbistanının müdafiə naziri şahzadəsi Məhəmməd İbn Salman rəhbərlik edib.

Ər-Riyad sammitində elan olunub ki, üzv ölkələr qlobal terrorizm və ekstremizmlə mübarizədə koordinasiyalı şəkildə fəaliyyət göstərəcək. Şərif görüş iştirakçılarına müraciətində bildirib ki, koalisiya antiterror əməliyyatları və üzv ölkələrin kəşfiyyat məlumatlarının mübadiləsi yolu ilə terrorizm əleyhinə mübarizəyə platforma olacaq. Ancaq İran, İraq, Suriya kimi ölkələr koalisiyaya qoşulmayıb.

Hərbi alyansda 34 ölkə iştirak edir. Hərbi ittifaqın mərkəzi Səudiyyə Ərəbistanında yerləşir, əsas təşkilatçı da Krallıqdır. Türkiyənin də qatıldığı bu ittifaqın ümumi ordularının sayı 3 milyon 363 min hərbçi və 19471 tank olmaqla böyük bir ordu hesab olunurdu. Rəsmi elan olunmuş məlumata əsasən, koalisiyaya Səudiyyə Ərəbistanı, Türkiyə, İordaniya, Birləşmiş Ərəb Əmirlikləri, Pakistan, Banqladeş, Bəhreyn, Benin, Çad, Toqo, Tunis, Cibuti, Seneqal, Sudan, Syerra-Leone, Somali, Qabon, Qvineya, Fələstin, Komor adaları, Qətər, Fil Dişi Sahili, Küveyt, Livan, Liviya, Mali, Maldiv adaları, Malayziya, Misir, Mərakeş, Mavritaniya, Niger, Nigeriya və Yəmən daxildir.

Azərbaycan tərəfi ər-Riyad sammitinə qatılsa da, İslam Koalisiyasına rəsmi olaraq qoşulmayıb. Hətta bir dəfə Pakistan mediasında Azərbaycanın da koalisiyaya qoşulacağı yazılsa da, sonradan XİN xəbəri təkzib etdi.

Hətta koalisiyanın yaranması münasibəti ilə ər-Riyadda Türkiyə hərbçilərinin də iştirak etdiyi hərbi parad keçirilib. Ancaq ötən 2 il yarım ərzində müsəlman hərbi alyansı hər hansı ciddi fəaliyyəti ilə yadda qalmayıb. Təsis sammitində elan olunduğu kimi, alyans müharibə gedən müsəlman ölkələrinə - İraq, Suriya, Misir və Əfqanıstana əsgər göndərmədi. Hazırda isə böyük ölçüdə unudulmuş və ya arxa plana keçmiş kimi görünür.

Qeyd edək ki, bir qədər əvvəl Qərb mediasında yayılan analizlərdə İsrailə ordu göndərməyə hazırlaşan İslam Alyansının ilk hücumda 250 min əsgərlə iştirak edəcəyi və bu zaman regionların kritik məkanlarında yerləşən yer, hava və dəniz bazalarından istifadə olunacaq. Vahid bazalar qısa müddət ərzində tikiləcək. 500 tankı, 100 təyyarəni, 500 hücum vertolyotunu səfərbər etmək üçün çox vaxt tələb olunmayacaq.

**İndi isə müsəlman ölkələrinin Fələstinə ordu göndərilməsi məsələsi gündəmə gəlib. Doğrudanmı, müsəlman ölkələri bunu bacara bilər? Məsələ ondadır ki, İslam Koalisiyası adlı qurumun hədəfləri sırasında İsrailin adı keçməyib. Hətta yarandığı zaman müsəlman ölkələrinin hərbi ittifaqı üzv ölkələrdə, o cümlədən müsəlman dünyasında terrorizmə, o cümlədən İŞİD-ə qarşı mübarizə aparacağı qeyd olunsa da, İsraildən bəhs olunmayıb. Digər tərəfdən, Türkiyənin belə bir planı olsa da, ABŞ-ın bu planı qəbul edib-etməyəcəyi məlum deyil. ABŞ imtina edərsə, o zaman Vaşinqtonun region müttəfiqləri olan Səudiyyə Ərəbistanı, BƏƏ, Misir, Küveyt və digər ölkələrin bu plana dəstək verməsi real deyil. Səudiyyə Ərəbistanı isə İslam Koalisiyasının əsas sponsor və təşkilatçısıdır, onun imtinası bu prosesi tamamilə poza bilər. Bu mənada Türkiyənin çağırışının reallaşması indiki şərtlərdə çox çətindir.**

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# İsrail parlamentindəki saxta "soyqırım" müzakirələri Bakını da təhdid edir





**Fazil Mustafa:** "Gərək yəhudilər özləri bu addıma qarşı dirəniş göstərsinlər"
**Hikmət Hacızadə:** "Bakı bununla bağlı İsrail parlamentinə bir izahat məktubu yollamalıdır"

**Qüds ətrafında yaranmış gərgin vəziyyətlə əlaqədar Türkiyə-İsrail münasibətləri yenidən kəskinləşib. 2010-cu ildə Türkiyəyə məxsus "Mavi Marmara" gəmisi Qəzza bölgəsində humanitar yük apararkən İsrail hərbçilərinin hücumuna məruz qalmışdı və ondan sonra uzun müddət ərzində Ankara-Təl-Əviv münasibətlərində gərginlik yaşandı.**

Bu dəfə də Fələstin xalqının maraqlarının tapdanmasına, çoxsaylı insan tələfatı ilə nəticələnən hadisələrə etiraz edən Türkiyə İsraillə əlaqələrinə yenidən baxmaqda qərarlıdır. Hadisələr baş verəndən sonra İsrailin Ankaradakı səfiri Eitan Neah Türkiyə Xarici İşlər Nazirliyinə (XİN) çağırıldı və ondan ölkəsinə geri dönmək tələb olundu. XİN-dəki mənbələrə görə, İsrail səfirinə Türkiyənin Təl-Əvivdəki səfirinin məsləhətləşmələr üçün Ankaraya çağırıldığı və onun da bir müddət sonra ölkəsinə dönməsinin uyğun olacağı bildirilib. "Haaretz" qəzeti də yazıb ki, səfir Eitan Naehdən Türkiyədən ayrılması istənilib.

Təl-Əviv də Ankaranın təpkilərinə biganə qalmayaraq, öz tərəfindən təsir rıçaqlarına əl atmağa başlayıb. Belə ki, İsrail parlamentinin deputatları Türkiyə ilə münasibətlərin kəskinləşməsi fonunda qondarma "erməni soyqırımı"nın tanınması məsələsini geniş müzakirəyə çıxarmağı qərara alıblar. Bu barədə Knessetin mətbuat xidməti məlumat verib. Bildirilir ki, əvvəlki illərdə irəli sürülərək qarşısı alınan təşəbbüslərdən fərqli olaraq, qərar bu dəfə hökumət tərəfindən etirazla qarşılanmayıb. "Erməni soyqırımı"nın tanınmaması İsrail dövlətinə mənəvi ləkədir. Xüsusən də əgər bu, siyasi konyukturanın xeyrinə baş verirsə", deyə təklifin müəllifi, sol təmayüllü "Mereç" partiyasının lideri Tamar Zandberq bildirib. Zaldakı 16 deputatın hər biri məsələnin Knessetin komissiyalarında deyil, parlamentin bütün tərkibi ilə müzakirə edilməsi üçün onun lehinə səs verib. Lakin debatın vaxtı hələlik təyin olunmayıb.

Bundan əvvəl də dəfələrlə İsraildəki erməni lobbisi qondarma soyqırım iddiasının parlamentə çıxarılması və qəbuluna cəhd etmişdi. Lakin hər dəfə bu cəhdlər iflasa uğramışdı. Elə bu ilin əvvəlində İsrail Knesseti qondarma "erməni soyqırımı" ilə bağlı qanun layihəsini qəbul etməmişdi. Knesset "Eş Atid" partiyasının sədri Yair Lapidin dəstəklədiyi qondarma "erməni soyqırımı"nı tanımaq barədə qanun layihəsini ilkin səsvermədə rədd etmişdi. Bundan sonra Ermənistan-İsrail dostluq qrupunun erməni nümayəndəliyinin İsrailə səfəri də uğursuz olmuşdu. Səfər çərçivəsində Knesset "erməni soyqırımı"nın tanınması barədə qanun layihəsini qəbul etməmişdi. Ermənistan-İsrail dostluq qrupunun üzvlərinin bu gün baş tutan mətbuat konfransında Ermənistan hakim partiyasının millət vəkili Gagik Minasyan İsraildə anlayışla qarşılanmadıqlarından şikayət etmişdi. O zaman ermənilər də şikayətlənmişdi ki, İsrailin müdafiə naziri Aviqdor Liberman sözügedən problemin müzakirəsi zamanı tez-tez Azərbaycana meyllilik mövqe nümayiş etdirib. Yəni bildirib ki, İsrail Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Dağlıq Qarabağın erməni silahlıları tərəfindən işğal olunmasını tanımır. Ermənistan nümayəndəliyinin üzvləri İsrail silahının Azərbaycana satılması məsələsini də gündəmə gətirmişdilər. Lakin İsrail tərəfindən heç bir müsbət cavab ala bilməmişdilər. İndiki durum Türkiyə ilə yanaşı, Azərbaycana da problem yarada bilər. Çünki saxta "erməni soyqırımı"nın tanınması Azərbaycanın da maraqlarına ziddir.

**Deputat Fazil Mustafa** "Yeni Müsavat"a dedi ki, İsrail parlamentinin bu addımı arzuolunan deyil: "Bu, bütün hallarda dövlətlərarası münasibətlərə təsir göstərməsə də, Azərbaycan cəmmiyyətindən sərt reaksiyalarla qarşılaşacaq. Qardaş Türkiyə ilə İsrailin münasibətlərinin arzuolunan səviyyədə olmamasından bizlər də narahatıq. Ancaq buna "erməni məsələsindən" istifadə edərək cavab vermək tarixi bir xata olardı və sağlam fikirli yəhudilər özləri gərək bu addıma qarşı dirəniş göstərsinlər". **F.Mustafa digər məqamı da vurğuladı:** "Həm də bu iddiaların yalan olmasını bilə-bilə belə bir dəstəkçi rolunda çıxış edilməsi sabah yəhudilərin özlərinin də "əzabkeşlik" tezislərinə şübhə ilə yanaşılmasına əsas verə bilər. Fikrimcə, Türkiyə ilə münasibətlərin yoluna qoyulması həm yəhudilərin, həm də dünya türklərinin faydasına olardı".

**Politoloq Hikmət Hacızadə** isə bildirdi ki, məsələnin parlamentə çıxarılması artıq mürəkkəb vəziyyət yaradır: "Bakı bununla bağlı İsrail parlamentinə bir izahat məktubu yollamalıdır. Türkiyə onsuz da İsraillə yola getmir. Bu gedişlə, əlbəttə, münasibətlər pisləşəcək. Amma Avropa Məhkəməsi ermənilərin "soyqırım" iddiasını rədd edib. Ona görə də hüquqi və ya maliyyə problemi qalxa bilməz. Yeri gəlmişkən, Azərbaycanın rəsmi qurumları İsrail parlamentinə məktub yazsa, bunu da xüsusi qeyd eləməlidir".

❑ **Cavid TURAN, "Yeni Müsavat"**

**Son bir neçə gündə narkotiklərlə bağlı iki xəbər gündəmi zəbt edib. İrandan Azərbaycan ərazisinə daxil olan yük avtomobili Astara Gömrük İdarəsinin Gömrük hüquqpozmalarına qarşı mübarizə şöbəsinin əməkdaşları tərəfindən yoxlanılıb və 515 kq narkotik vasitə - heroin aşkar edilib.**



# Azərbaycan narkobaronların hədəfində

## "Qara kabus"un müəllifi gizli tranzit marşrutlarından danışdı:
## "Dağlıq Qarabağ və Abxaziya heroin trafikində önəmli yer tutur..."

Balakəndə isə Rayon Polis Şöbəsinə daxil olan məlumat əsasında rayon sakini, əvvəllər məhkum olunmuş Məmməd Şamxalovun fərdi yaşayış evinə baxış keçirilib. Evinin 1-ci mərtəbəsində xüsusi örtüklə izolə edilmiş narkotik tərkibli bitkilərin yetişdirilməsi və emalı üçün nəzərdə tutulmuş istilikvermə cihazları, buxarlandırma sistemləri və digər texniki ləvazimatlarla təchiz edilmiş xüsusi laboratoriya aşkar edilib. Polis əməkdaşları tərəfindən oradan 57 kiloqram 345 qram qurudulmuş marixuana, 2147 ədəd çətənə toxumu, 2 ədəd elektron tərəzi, həmçinin müvafiq sənədləri olmayan 2 tüfəng, 6 ədəd patron, optik-gecəgörmə qurğusu,1 ədəd soyuq silah hesab edilən beşbarmaq tipli bıçaq tapılıb. Əməliyyat tədbirlərinin davamı olaraq evin həyətyanı sahəsinə əlavə baxış keçirilən zaman oradan kultivasiya yolu ilə əkilərək aqrotexniki qaydada qulluq edilən 40 ədəd, laboratoriyadan isə 95 ədəd çətənə bitkisinin kolları müəyyən edilərək götürülüb.

Bu məlumatlar belə təsəvvür formalışdırır ki, ölkədə narkotiklərə böyük tələbat var. Və artıq narkotik istehsalı ilə məşğul olan mobil laboratoriyalar da peyda olmaqdadır.

**Sabiq təhlükəsizlik zabiti, narkotiklərlə mübarizəyə "Qara kabus" adlı kitab həsr edən ekspert Arzu Nağıyev** deyir ki, xəbərlərin ardıcıllığı çaşqınlıq yaratmamalıdır: "Heroin ağır narkotik sayılır və istehsalı əsasən Əfqanıstandadır. Əfqanıstan-İran-Azərbaycan-Avropa dövlətləri yolu da illərdir ki, məlum yoldur. Bu axın Azərbaycanda istehsalın, istehlakın nə qədər olmasından asılı məsələ deyil. Arada olur ki, Balkanlarda müharibə ilə əlaqədar narkotik marşrutları tez-tez dəyişir. Böyük narkotik partiyalarının tutulması onu deməyə əsas verir ki, Azərbaycan hüquq-mühafizə orqanlarına əməliyyat məlumatları əvvəlki illərə nisbətən daha çox daxil olmağa başlayıb. Hiss olunur ki, tutulan mallar Azərbaycan üçün deyil, məhz Avropa üçün nəzərdə tutulub".

Arzu Nağıyev hesab edir ki, Balakəndə narkolaboratoriya tutulması xəbəri bir qədər şişirdilib: "Əslində ortada kiminsə evində bir qaz plitəsinin üstündə marixuanadan, çətənədən istifadə edərək qaynatma yolu ilə daha yüngül narkotik hazırlayıb. Bu gün bazarda olan ucuz bir narkotik, yüngül bir narkotik istehsal edib. Ağır narkotiklərin istehsalı üçün lazım olan komponentləri əldə etmək bir qədər çətindir. Həmin komponentləri əldə etmək, onlardan istifadə edilərək narkotik istehsal etmək çətindir. İnandırıcı görünmür ki, kimsə kustar şəkildə buna nail ola bilər. Yəni Balakəndəki adı laboratoriya qoyulan kiçik otaqda alimlər, professorlar işləməyib ki, oranı laboratoriya adlandırsınlar. Ən primitiv yollarla narkotik istehsalından söhbət gedir".


Arzu Nağıyev




**Arzu Nağıyev Balakəndəki kiçik otaqda narkotiklərin qaynadılması yolu ilə daha yüngül narkotik vasitə əldə edilməsi prosesinin tələbdən irəli gəldiyini düşünür:** "Yəni realizə etmək imkanlarını öyrənib bazara uyğun mal çıxarıb. Amma çox da uzağa gedə bilməyib. Tələbat olmasa həmin şəxs o qədər narkotiki qaynadıb daha yüngül narkotik vasitələr əldə etməzdi. Yəni deyə bilər ki, bunu öz istifadəm üçün etmişəm, amma ona inanmaq çətindir".

**Ekspert deyir ki, son zamanlar Azərbaycan hüquq mühafizə orqanları narkotiklərə qarşı mübarizədə mühüm işlər görür:** "Azərbaycan müstəqillik qazanandan sonra mənfur qonşularla müharibəyə cəlb edildi. Narkomafiyalar da əsasən gərginlik ocaqları olan ərazilərdəki separatçılarla əlbir işləyirlər. Əvvəllər narkotiklər əsasən Balkanlar üzərindən daşınırdı. Balkanlarda müharibə qızışdığına görə marşrutu cənub və şimal marşrutlarına dəyişdilər. İran, Rusiya, Azərbaycan, Gürcüstan ərazilərindən istifadə edilərək Avropaya narkotik daşımaları həyata keçirilir. Ukrayna əraziləri də narkoticarətçilərin tranzit yollarına daxildir. Bu marşrutlar hansısa ölkənin razılığı və ya narazılığı ilə seçilmir. Bu marşrutları narkobaronlar, həmin trafikə nəzarət edənlər müəyyən edir. Onlar bir-iki dəfə marşrutu yoxlayırlar. Əfqanıstandan Avropaya narkotik daşıyanların yeni - "Şimali Balkan yolu" adlandırdığı marşrut məhz Azərbaycandan keçir: Əfqanıstan, İran, Azərbaycan, Gürcüstan və Qara dəniz vasitəsilə Bolqarıstana daşınır. Köhnə Balkan marşrutu isə İrandan birbaşa Türkiyəyə yönəlirdi. İrandan Türkiyəyə toplanan heroin ya İstanbul vasitəsilə Bolqarıstana, ya Anadolu boyunca - Egey dənizi və Yunanıstana, ya da Hakkaridən şimala - Qara dəniz və Ukraynaya daşınır. Almaniya, İtaliya, Hollandiya, Britaniya bazarlarına heroin məhz bu marşrutlarla gedir".

*Hər il dünya üzrə 10 tonlarla narkotik vasitələr məhz marşrutlar üzrə hərəkətdə olarkən tutulur. Bəs necə olur ki, belə vasitələr istehsal edilərkən, becərilərkən hüquq-mühafizə orqanlarının diqqətindən kənar qalır?*

Arzu Nağıyev deyir ki, söhbət ikili standartlardan gedir: "Əfqanıstanı taliblər idarə edəndə orada ən az narkotik istehsal olunmuşdu. Sonradan Rusiya qoşunları orada olanda narkotik istehsalı az da olsa artdı. ABŞ və digərləri ora girəndən sonra isə narkotrafik həddən artıq çoxaldı. Əfqanıstanda narkotiklərin yetişdirilməsi geniş vüsət alıb. İnandırıcı görünmür ki, bu nəzarətsizlikdən irəli gəlir. Söhbət ikili standartlardan gedir. Bu gün Əfqanıstanda kənd təsərrüfatını dirçəldə, iqtisadiyyatı bir tərəfə yönləndirə bilsələr, ola bilər ki, narkotik becərilməsinin qarşısını ala bilərlər. Bunu etmirlər. Əfqanıstanlı, hansı ki, narkotik becərilməsi ilə məşğuldur, o, bu işdən imtina edən deyil. Çünki onun başqa qazanc yeri yoxdur".

**Onun sözlərinə görə, Əfqanıstanda narkotik becərilməsinin qarşısını almaq üçün yollar axtarılmır:** "Bu gün Əfqanıstanda həmin qoşun kontingentinin yerləşdirilməsinin özəl səbəbləri var. Əfqanıstanda böyük litium yataqları var. Həmin yataqları ələ keçirmək üçün məqsədyönlü iş aparılır. Litium elektromobillərin yaradılması üçün əvəzsiz komponentdir. Dünya postneft dövrünə qədəm qoyandan sonra litium neftin yerinə keçəcək. İndidən həmin yataqların olduğu ərazilər ələ keçirilir və buna görə də Əfqanıstanda narkotik becərilməsinə göz yumulur. Düşünürəm ki, onların arasında razılıq, danışıq var. Başqa cür ola bilməz. Əfqanıstanda müharibə getdiyi dövrdə narkotik plantasiyalarının birinə də bir bomba düşməyib, dron-kamikadzelərlə hücum olmayıb. Bu təsadüfdür?"

Arzu Nağıyevə görə, dondurulmuş münaqişə zonaları da narkobaronların narkotranzit xəritələrində marşrutların keçdiyi ərazilər kimi qeyd olunur: "Dağlıq Qarabağ zonasında relyef də, dondurulmuş münaqişə də oradakı terrorçular, qanunsuz dəstələr də narkoticarət üçün münbit şərait yaradır. Düşünürəm ki, həmin ərazilərdə müəyyən laboratoriyalar da mövcuddur. BMT-nin hesabatlarında bu haqda məlumatlar keçib".

Arzu Nağıyev düşmən ölkə rəhbərliyinin narkotranzitdən gəlir əldə etdiyini də vurğulayıb. BMT-nin Narkotiklər və Cinayətlə Mübarizə Təşkilatının hazırladığı "Dünya Narkotiklər hesabatında" bildirilir ki, Qafqazda və regionda separatçı rejimlərin nəzarətində olan ərazilər - xüsusən də Dağlıq Qarabağ və Abxaziya heroin trafikində önəmli yer tutur. BMT-nin narkotiklərlə bağlı hesabatına görə ümumilikdə Avropaya daşınan heroin satışından gələn illik gəlir 20 milyard dolları aşır.

**Ekspert sonda bildirdi ki, Azərbaycanda narkotiklərlə mübarizə bir qədər də kəskinləşdirilməlidir:** "Narkotik böyük bəladır və ölkəmizi bu bəladan qurtarmaq üçün bütün səylər birləşdiriməlidir".

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Türkmənlər dollar almaq üçün Bakıya axışır-təfərrüat

## Türkmənlər Bakıda aldıqları dolları ölkələrində "qara bazar"da rəsmi məzənnədən 5 dəfə baha dəyişirlər

**Son bir neçə aydır türkmənlərin Bakıya axını başlayıb. Aşqabaddan gəmi ilə Bakıya gələn türkmənlər daha çox dəniz limanı ərazisində və onun ətrafında alver edirlər. Bakıya qızıl və pal-paltar, trikotaj malları gətirərək satır, əldə etdikləri pulu dollara çevirərək vətənlərinə dönürlər.**




Virtualaz.org xəbər verir ki, türkmənlərin bu alveri onların ölkəsində hökm sürən sosial-iqtisadi vəziyyətlə bağlıdır. İqtisadi böhran Türkmənistanda dollar satışının faktiki ləğv olunmasına gətirib çıxardığından türkmənlər Bakıda aldıqları dolları ölkələrində qara bazarda rəsmi məzənnədən 5 dəfə baha dəyişirlər.

Onlardan biri saytın əməkdaşına deyib ki, Bakıya qrup şəklində Türkmənistana məxsus "Bəxtiyar" gəmisi ilə gəlirlər. Amma həmin gəmidə gediş haqqı bahadır - 60 dollardır. Sərfəli olsun deyə, qayıdarkən Azərbaycan gəmilərindən biri ilə yola düşürlər, çünki bu gəmilərə bilet cəmi 10 dollaradır.

Məlum olur ki, Türkmənistanın tekstil fabrikinin istehsalı olan geyimlər, alt paltarları və dəsmallar Bakıda yaxşı satılır.

Türkmənistandan Bakıya turist kimi gələn başqa biri isə deyib ki, türkmənlərin mətbuatdan qaçmaqlarına səbəb onların ölkəsində olan ağır şərtlərlə əlaqələndirir. Onun sözlərinə görə, Türkmənistanda əhali fikrini sərbəst ifadə edə bilmir. Burada dedikləri hər sözə görə Türkmənistanda cavab verməlidirlər. Əks halda onları ölkədən xaricə çıxa bilməmək kimi cəza gözləyir.

"Sizə buradakı türkmənlərdən heç kim heç nə deməyəcək. Bizdə belə şeylər yoxdur, hamı danışmağa qorxur. Əgər kimsə nəsə desə, gələn dəfə onu bura buraxmazlar. Pasportuna möhür vurular və 5 il ölkədən çıxması mümkün olmur. Hətta internetdə şəkli çıxarsa, həbs edə bilərlər. Bizdə indi vəziyyət çox çətindir, ölkə iqtisadi böhran içərisindədir. Adətən xaricə gedəndə hamıya dollar lazım olur, amma bizdə banka getsəniz, bank bağlanıb və dolları heç kimə vermirlər. Dollar almaq istəyirsənsə, qara bazara gedirsən. 5 qat baha qiymətə alırsan. Məsələn, buradan 100 dollar alırsan, onu aparıb Türkmənistanda 500 dollar edirsən".

**Turist deyib ki, Bakıya gələn türkmənlərin əsas məqsədi alver deyil, dollar almaqdır. Yüz dollar türkmən manatı ilə 350 manatdır. Ona görə hətta əksər tacirlər gətirdikləri malları elə öz ölkələrindən aldıqları qiymətə də satırlar.**

YENİ MÜSAVAT
N 115 (7004) 26 may 2018



# Ölkəmizdə elektron ticarətin inkişafı ləngiyir: çıxış yolu nədir?

## Azərbaycanda onlayn alış-verişin həcmi 1,5 faiz deyil, çünki...

**Dünyada iqtisadi baxımdan yüksək inkişaf yolu keçmiş ölkələrdə əsas göstəricilərdən biri də elektron ticarət həcminin pərakəndə ticarəti üstələməsidir. Hazırda bir çox ölkədə ticarət dövriyyəsində onlayn alış-verişin həcmi yüksələn xətlə artmaqdadır. Azərbaycanda isə elektron ticarət həcmi ümumi ticarət dövriyyəsinin heç 1,5 faizini belə əhatə etmir. Əksinə, hökumətin son illər verdiyi qərarlar, xüsusən də onlayın ticarətin vergiyə cəlb olunması ona olan marağı bir qədər də azaldıb.**

İqtisadçı ekspertlər isə hesab edir ki, elektron ticarəti təşviq etmək üçün xüsusi vergi güzəştlərinin tətbiqi vacibdir. Əks halda biz bütün dünyanın getdiyi bu yolda axının əksinə üzməli olacağıq.

**İqtisadçı-ekspert Vüsalə Əhmədova** "Yeni Müsavat"a açıqlamasında dünyada elektron ticarətin yaranmasından və hazırkı inkişaf mərhələsindən danışdı: "Elektron ticarət dedikdə internet vasitəsilə onlayn və ya oflayn icra edilən əməliyyatlar nəzərdə tutulur. Termin məhz keçən əsrin sonlarında İBM şirkəti tərəfindən yaradıldı və getdikcə dünyada yayılmağa başladı. İlk internet-mağaza tipli saytın əsası 1979-cu ildə Böyük Britaniyada Mixael Aldrik tərəfindən qoyulub. 1980-ci ildə artıq "Ford", "Peugeot", "General Motors" və "Nissan" kimi irimiqyaslı avtomobil istehsalçıları internet-mağazalardan istifadə etməyə başladılar. Anlaşıldığı kimi, ilk virtual mağazalar öncələr avtomobil sənayesi təmsilçiləri ilə məhdudlaşırdı. 1990-cı ildən etibarən elektron ticarətdən müəssisə resurslarının planlaşdırılması, intellektual analiz və məlumatların saxlanması üçün istifadə edilməyə başlandı. 2000-ci ildən başlayaraq isə əsasən Amerika və Avropa şirkətləri öz məhsul və xidmətlərini internet vasitəsilə təqdim etməyə başladılar və getdikcə bütün dünyada geniş vüsət aldı".

**V.Əhmədovanın sözlərinə görə, elektron ticarət 4 qrupa ayrılır:** "Müəssisələr arasında (B2B), müəssisə ilə istehlakçı arasında (B2C), istehlakçılar arasında (C2C) və istehlakçı ilə sahibkar (C2B) arasında həyata keçirilən elektron ticarət... Daha sonralar ağıllı telefonların, planşetlərin, sosial media platformalarının yaranması ilə yeni e-ticarət formaları da ortaya çıxdı. Elektron alış-verişdə kitablar, audio-vizual materiallar, elektron əşyalar, elektrik alətləri, tibbi və kosmetoloji məhsullar, geyim və mebel kimi mallar əsas yerləri tutdu. 2012-ci ildə qlobal miqyasda 25% olan e-ticarət, son üç ildə 60%-ə çatıb. Dünya miqyasında həyata keçirilən e-ticarət həcminin regional bölgü nisbətinə baxsaq görərik ki, 34% Şimali Amerika, 31% Asiya-Sakit Okean, 27% Qərbi Avropa, 4% Şərqi Avropa, 3% Latın Amerikası, 2% Yaxın Şərq və Afrika bölgəsinin payına düşür. E-ticarət həcminə görə ilk beşlikdəki ölkələr ABŞ, Çin, İngiltərə, Yaponiya və Almaniya sayılır. Onlayn ticarət dövriyyəsi 2016-cı ildə 2 trilyon dollar olduğu halda, 2018-ci ildə qlobal e-ticarətin həcmi 2,5 trilyon dollar səviyyəsinə çatdı, 2020-ci ildə isə 4 trilyon dollar olacağı gözlənilir".

**İqtisadçı onu da vurğuladı ki, ölkəmizdə elektron ticarət dövriyyəsi həddindən artıq məhdud həcmdədir:** "Azərbaycanda 2017-ci ilin yanvar-mart ayları üçün pərakəndə ticarət dövriyyəsi 7,9 milyard manat təşkil etdiyi halda, e-ticarət bazarının həcmi cəmi 10,1 milyon manat olub. Ölkəmizdə e-ticarət həcminin az olmasının bir sıra obyektiv və subyektiv səbəbləri var. İlk öncə, ölkəmizdə bank kartlarının illik qiymətlərinin kifayət qədər yüksək olduğunu qeyd etmək istərdim. Kartların qiyməti növündən asılı olaraq 8 manat ilə 650 manat arasında dəyişir. Ölkəmizdə hazırda istifadədə olan cəmi ödəniş kartlarının sayı 5 milyon 558 min ədəd təşkil edir ki, onların da 2 milyon 545 min ədədi sosial, 1 milyon 702 min ədədi əmək haqqı, 745 min ədədi isə digər kartlardır. Əmək haqları və təqaüdlər plastik kartlarla verilir ki, insanlarımızın böyük əksəriyyəti bu kartlardan yalnız nağd pulun çıxarılması üçün istifadə edirlər. Müqayisə üçün bildirmək istərdim ki, Türkiyə istifadədə olan bank kartlarının sayı 131 milyon 600 min ədəddən çoxdur. Bu ölkədə internet vasitəsilə kartlı ödəmələr ildən ilə artmaqdadır, hər 5 kredit kartından 2-si internet alış-verişində istifadə olunur. Bundan əlavə, ölkəmizdə bir çox onlayn market saytları özlərinin fiziki ünvanlarını göstərmirlər, bu isə alıcıların internet mağazalara inamını azaldır. Digər bir səbəb kimi, e-ticarət saytlarında və hətta böyük şirkətlərin saytlarında belə axtarış sistemlərinin optimallaşdırılmasının aşağı səviyyədə olduğunu, onlayn marketlərin bloqunun mövcud olmadığını qeyd etmək istərdim. Çatdırılma xidmətlərindəki bəzi cüzi problemləri də bura daxil edə bilərik".

**V.Əhmədova diqqətə çatdırdı ki, onlayn alış-verişin vergiyə cəlb olunması bu istiqamətdə inkişaf sürətini bir qədər də azaltdı:** "Xatırladım ki, 2016-cı ildə hökumətimiz internet saytlarından ediləcək onlayn alış-verişlər üçün 18%-lik ƏDV tətbiq etdi. Bildiyiniz kimi, Azərbaycanda "Elektron ticarət haqqında" qanun qəbul edilib. Qanun elektron ticarət qaydalarından tutmuş, işlərin və xidmətlərin təqdim edilməsi, elektron ticarətin iştirakçısı olan satıcı və alıcıya dair tələbləri müəyyən edən normalaradək özündə ehtiva edir. Vergi Məcəlləsinə də rəqəmsal iqtisadiyyat çərçivəsində aparılan əməliyyatların vergiyə cəlb edilməsinin işlək mexanizmini müəyyən edən müddəalar əlavə edildi. Qeyri-rezidentlər tərəfindən Azərbaycan rezidentlərinə elektron ticarət qaydasında göstərilən xidmətlərdən, ödəməni həyata keçirən bank tərəfindən ƏDV hesablanır və alıcının vəsaiti hesabına tutulmaqla dövlət büdcəsinə ödənilir. İnternet şəbəkəsi vasitəsi ilə elektron kitabların, audio-video materialların, qrafik təsvirlərin, virtual oyunların, proqram təminatlarının yüklənməsi də qeyri-rezidentin göstərdiyi iş və xidmət hesab edilməklə ƏDV-yə cəlb edilir. Hazırda demək olar ki, elektron ticarət xüsusən sahibkarlar üçün sərfəlidir. Elektron ticarətin ölkəmizdə geniş vüsət alması üçün müəyyən vergi güzəştlərinin tətbiq edilməsi vacibdir. E-ticarəti ƏDV-dən azad etməklə istehlakçılar üçün daha sərfəli hala gətirmək olar. Nağdsız ödənişlərin payının artırılması bizə "kölgə iqtisadiyyatından" müəyyən qədər qurtulmaq imkanı verə bilər. Kağız pulların az istifadəsi ölkədə cinayətkarlığın sayının azalmasında da mühüm rol oynayır. E-ticarətin artırılması üçün stimullaşdırıcı tədbirlərin görülməsi mütləqdir. Dünyanın bütün inkişaf etmiş ölkələrində ödəniş kartları vasitəsi ilə hesablaşmalar daha sərfəlidir. İnsanlara e-ticarət şəbəkələrində endirimlər əldə etmək imkanları verilir".

❑ **Nərgiz LİFTİYEVA**
**"Yeni Müsavat"**


Vüqar Quliyev

## Sumqayıtda işdən çıxarılan işçi müdirini öldürdü

**Sumqayıt şəhərində qətl hadisəsi baş verib. Hadisə Mehdi Hüseynzadə adına stadionun yaxınlığında olub. Sumqayıt şəhər sakini 1979-cu il təvəllüdlü Quliyev Vüqar Ənvər oğlu öz işçisi tərəfindən bıçaqlanıb. O, Sumqayıt şəhər Təcili Tibbi Yardım Xəstəxanasına çatdırılsa da, onun həyatını xilas etmək mümkün olmayıb.**

Hadisənin bəzi təfərrüatları məlum olub. Məlumata görə, mərhum Vüqar Quliyev Sumqayıtda gül biznesi ilə məşğul imiş və onun şəhərin bir neçə yerində gül dükanı var. O, Sumqayıtda "Gül Vüqar" kimi tanınırdı.

Hadisəyə gəldikdə isə V.Quliyevi keçmiş işçisi qətlə yetirib. Həmin şəxs bir müddət əvvəl işdən çıxarılıbmış. Axşam saatlarında dükana gələn şəxs ona kürək nahiyəsindən bıçaqla zərbələr endirib. Qətli törədən şəxsin psixi problemlərinin olduğu deyilir.

Faktla bağlı Sumqayıt şəhər Prokurorluğunda qəsdən adam öldürmə maddəsi ilə cinayət işi açılıb, araşdırmalar davam etdirilir.

**Elan**

**Ağdaş rayon Ağzıbir kənd sakini Əsgərova Tamara Davud qızına məxsus JN-292 nömrəli dövlət aktı itdiyi üçün etibarsız sayılır.**

***

**Yeni Yasamal Əsəd Əhmədov küçəsi 24-cü bina mənzil 73-də yaşayan Səlimova Elnarə Aydın qızına məxsus evin "Qlobal Azəri" MMC ilə bağlanmış müqavilə sənədləri itdiyi üçün etibarsız sayılır.**

**Məşədi Dadaş məscidinin imamı, tanınmış ilahiyyatçı Hacı Şahin azvision.az saytına müsahibə verib. Müsahibədən bəzi hissələri oxuculara təqdim edirik.**

# "Şəriət qadınla kişinin toyda birgə oynamasın məqbul hesab etmir"

***-Bu yaxınlarda bir məlumat oxuduq ki, Türkiyənin Ərzurum bölgəsində oruc tutmayanları döyürlər. Hətta foto da paylaşmışdılar. İslamın buna münasibəti necədir? Bizdə də belə hallar olurmu?***

- Oruc tutmayan insanları buna zorla vadar etmək olmaz, dinin ibtidai prinsiplərinə ziddir. İbadətləri yerinə yetirməyən insanlara dözümlü, mehriban, mərhəmətli yanaşmaq lazımdır. Peyğəmbərlər də bu yolu tutublar. Bəziləri peyğəmbərin döyüşlərini çox qabardır. Amma biz Quranla tanış olanda və tarixə müraciət edəndə görürük ki, bu döyüşlər zərurətdən yaranıb, müdafiə xarakteri daşıyıb. Qurandakı cihad ayələri "sizə qarşı vuruşanlarla vuruşun" məntiqi ilə deyilib. Bir sözlə, oruc tutmayanların döyülməsi qətiyyən yolverilməzdir.

***-Bir dəfə müsahibənizdə halal və haram musiqinin olduğunu bildirmişdiniz. Maraqlıdır, haram musiqi dedikdə nəyi nəzərdə tutursunuz?***

- Musiqi haqqında qəti fikir söyləmək çətindir. Çünki Quranda musiqi ilə bağlı şəffaf bir ayə yoxdur. Hədislərə müraciət edirik və ağlımızla hesablayırıq. Haram dedikdə insanı zorakılığa, əxlaqsızlığa, düşünməmiş hərəkətlərə təhrikedici musiqilər nəzərdə tutulur. Musiqinin insan ruhuna müxtəlif təsirləri var. Dinimiz insanı aşağılayan, onun insanlığına uyğun gəlməyən, günaha çəkən musiqi növlərindən çəkinməyi tövsiyə edib. Belə musiqini necə məyyən edək? Bu, insanların öz ixtiyarındadır. Hər bir şəxs özü müəyyən edə bilər ki, hansı musiqilər bu mahiyyətə malikdir.



**Hacı Şahin:** "Bəziləri Həccə gedir ki, gələndə desinlər ki, keç yuxarı başda otur..."

***-Bəs, siz özünüz hansı mahnıları dinləyirsiniz?***

- Klassik musiqini, muğamlarımızı dinləyirəm. Alim Qasımova, Mirələm Mirələmova qulaq asıram. Gəncliyimdə Avropa və italyan musiqilərini dinləmişəm. İndi isə zövqlər bir az dəyişib.

***- Səhv etmirəmsə, siz bir dəfə bildirmişdiniz ki, qadınla kişinin üz-üzə rəqs etməsini din qəbul etmir. Buna səbəb nədir? Niyə qadın kişi ilə rəqs edə bilməz?***

- Quranda bu barədə ayə yoxdur, xatırladığım qədəri ilə orada buna işarələr var. Qadınla kişinin rəqs etməsi ilə bağlı şəriət kitablarında müəyyən görüşlər var ki, bunun qeyri-məqbul olduğunu bəyan edir. Bütün müsəlman alimlərinin yekdil rəyi bundan ibarətdir ki, qadın və kişi birgə içki məclislərində iştirak edə bilməz. Onların bir yerdə rəqs etməsini məqsədəuyğun hesab etmirlər.

***-Siz özünüz toylarda iştirak edirsinizmi?***

- Mən yaxın insan olanda, toya gedib onu təbrik edə bilərəm. Kişilər və qadınların ayrı olduğu toylar da olur. Belə toylar digərlərindən geri qalmır. Əvvəllər Azərbaycanda toylar belə olub. Mən mühafizəkar insan deyiləm və hesab edirəm ki, din də mühafizəkar deyil. Keçmişlə bağlı çox şey ola bilər ki, yanlışdır. Bunu müasir dövr haqqında da demək olar. Keçmişimizlə bağlı ziyanlı şeylərdən imtina edə bilərik. Eyni zamanda hər bir yeniliyi də kor-koranə qəbul edə bilmərik. Dindar mühafizəkar insan deyil. Özüm müasir insanam. Yeniliyin və dəyişikliyin əleyhinə deyiləm. Əksinə, inkişafın əleyhinə olan insanları dindar hesab etmirəm. Onlar dindən uzaqdırlar.

***- Bəzən insanlar Quranla fala baxırlar, insanın gələcəyini deyirlər. Quran gələcəyi göstərə bilərmi?***

- Bu, ciddi yanlışlıqdır. Fal Quranın buyurduğu haram əməldir. Quran falı şeytan əməli, insana yaraşmayan günah əməl hesab edir. Quran bunu belə bəyan edirsə, insanlar götürüb Quranla fala baxırlarsa, bu, məntiqsizlikdir. Axı orada həmin insanın taleyi haqqında heç nə yazılmayıb. Təəssüflər olsun ki, kimlərsə bundan gəlir vasitəsi kimi istifadə edir və bir qrup insan da buna inanır.

***- İntihar niyə günah sayılır? İnsan öz həyatının ağası deyilmi?***

- İntihar etmək onun elə ağalığına sığmır. İntihar acizlik əlamətidir, insana yaraşmır. O, qüdrətli olmalıdır.

***- İnanclı insanlar ateistlərin sonda Allaha qayıdacağını düşünürlər. Siz nə deyə bilərsiniz bu haqda?***

- Onların inanca qayıdıb-qayıtmayacaqlarını iddia etmək çətindir. Ateist olar ki, inanca qayıdar, dindar da olar ki, inancdan çıxar. Heç kimin sonu haqqında dəqiq zəmanət sahibi deyilik. Bu gün Allaha inanan sabah onu inkar edə bilər və ya əksinə. Dində məcburiyyət yoxdur, insanlar öz əqidəsini özü seçir. Ateistlərlə müzakirələr aparmışam, polemikaya da girmişəm. Müzakirədə məqsəd kimisə aşağılamaq, yaxud dediyimi kiminsə beyninə yeritmək olmayıb.

İnsanların inanclarını tərk etməsinin, ateist olmalarının səbəblərindən biri də dinin düzgün təqdim edilməməsidir. Ona görə də insanları qınamağa tələsməməliyik. Doğrudur, bəzən həmin davranış ateistlər tərəfindən də edilir. Dindarları savadsızlıqda ittiham edirlər. Onları ələ salırlar. Biz birgə yaşayışın qaydalarını mənimsəməliyik. Mədəni insan olaraq bir cəmiyyətdə yaşamalıyıq.

***- Ümumiyyətlə, tanışlarınız arasında ateistlər varmı?***

- Bəli, var.

***- Uzun illərdir ki, Həcc karvanına rəhbərlik edirsiniz və Allah evinin zəvvarlarına xidmət göstərirsiniz. Bəzən insanlar arasında belə fikirlər dolaşır ki, Həcc ziyarətinə getməkdənsə, vətənində kiməsə yaxşılıq et. Bu fikirləri doğru hesab edirsinizmi?***

- Həccə gedən insan getməmişdən öncə və sonra ətrafında olan yoxsul insanlara yardım etməlidir. Gücü çatan qədər xeyriyyəçiliklə məşğul olmalıdır. Dinimiz deyir ki, qonşusu ac olanda tox halda yatan insan müsəlman deyil.

Həcc özü isə mənəviyyat məktəbidir. Adam orada qəribə hallar keçirir. Həccin cazibəsi var. Bütün çətinliklərə baxmayaraq, insan dəfələrlə getmək istəyir. Həcc və Kərbəla müsəlman xalqlarının bir-birinin problemi ilə yaxından tanış olması üçün fürsətdir. Kərbəlada şəhidlərimizin şəkilləri olan stend düzəldilmişdi. Erməni təcavüzü ilə bağlı ərəb və ingilis dillərində məlumatlar paylaşılmışdı. İnsanlar yaxınlaşıb maraqlanırdılar. Bəzi insanlar isə Həccə gedir ki, titulunu artırsın. Gələndə desinlər ki, keç yuxarı başda otur və s.

# Ramazanda fərqli təqvim problemi

## Şeyx Dini Komitədən yardım istədi, QMİ-nin təqvimindən kənara çıxanlar cəzalana bilər

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) təsdiq etdiyi təqvimdən kənara çıxan məscidlər barədə tədbir görüləcək. Bu barədə mətbuata Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı məlumat verib. Komitə sədri deyib ki, komitənin yerlərdə olan nümayəndələri azanı QMİ-nin təqvimindən fərqli vaxtda verən imam və ya naiblər haqqında protokol tərtib edə bilər.**

M.Qurbanlı onu da deyib ki, hələlik Ramazan ayında məscidlərdə azanın müxtəlif vaxtlarda səslənməsi ilə bağlı onlara bu günə qədər müraciət daxil olmayıb. Onun sözlərinə görə, QMİ-nin təsdiq etdiyi təqvim var: "Rəsmi təqvimdən kənara çıxan məscid olarsa bununla bağlı tədbir görüləcək. Yerlərdə olan nümayəndələrimiz azanı QMİ-nin təqvimindən fərqli vaxtda verən imam və ya naiblər haqqında protokol tərtib edə bilərlər".



Xatırladaq ki, sonuncu dəfə mayın əvvəlində QMİ sədri Şeyxülislam Allahşükür Paşazadə Ramazan ayında azanın fərqli vaxtlarda verilməsinin qarşısını almaq üçün Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıdan kömək istəyib.

Azərbaycanda azanın müxtəlif vaxtlarda verilməsi mövzusu illərdir müzakirə olunur və demək olar ki, hər il bu məsələ gündəmə gəlir. Azanın fərqli vaxtlarda verilməsinin iki əsas səbəbi var. Məsələ ondadır ki, bizdə uzun illər bu sahədə faktiki olaraq dərəbəylik olub. Müxtəlif icmalar, camaatlar, məscidlər özlərinə uyğun namaz təqvimləri buraxıb. İran, Türkiyə, Səudiyyə Ərəbistanı və digər mərkəzlərin tövsiyə etdiyi, hazırladığı təqvimlər olub. Bu təqvimlər ölkədə geniş yayılıb və hətta bəzi məscidlər də buna əsasən azan verib. Nəticədə azan vaxtlarında açıq-aşkar pərakəndəlik olub.

Doğrudur, azanın günün bəzi vaxtlarında fərqli saatlarda verilməsi həm də məzhəblərin göstərişləri ilə bağlıdır. Yəni məsələn, şiə və sünni hökmlərinə əsasən axşam azanı bir neçə dəqiqə fərq edir, şiə icması havanın daha çox qaralmasını gözləyir. Eləcə də sübh azanı ilə bağlı nəzəri bəhslərə söykənən fərqliliklər hətta eyni məzhəb daxilində də var və bu da nəticə etibarı ilə təqvimlərdə özünü büruzə verir. Amma azan saatları bir çox hallarda eyni məzhəblərin ardıcıllarına görə də dəyişə bilir.

Qeyd etdiyimiz kimi, uzun illər bu sahədə pərakəndəlik olub və dövlət qurumları, necə deyərlər, bu mövzularaqarışmayıb. Ancaq son illərdə bir çox digər sahələrdə olduğu kimi, burda da bir qayda yaratmaq cəhdi var. Xüsusən də hökumətin son illərdə multikultralizm və məzhəblər arasında yaxınlaşma siyasəti kursu məscidlərdə vahid vaxtlara əsasən azan verilməsi məsələsini gündəmə gətirib. Əlbəttə, QMİ də nəzərə alır ki, məsələn axşam azanında şiə və sünni məscidlərində bir neçə dəqiqə fərqin olması labüddür. Ancaq problem ondadır ki, çoxlu sayda təqvimlər yayılıb və bunlardan imtina etmək, vahid təqvimə keçmək lazımdır. Belə görünür ki, son illərdə hökumət böyük ölçüdə məscidlərdə QMİ və Şamaxı Astrofizika Rəsədxanası ilə birgə hazırladığı təqvimlərə əsasən azan verilir. Təbii ki, məzhəb fərqləri nəzərə alınmaqla.

**Ancaq fərqli təqvimləri ümumilikdə yığışdırmaq mümkün olmayıb. İnternetdə, eləcə də çap edilib çoxaldılaraq yayılan fərqli mərkəzlərin hazırladığı təqvimlər var. Bunları tamamilə yığışdırmaq isə çox çətindir.**

**❑ KƏNAN,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 115 (7004) 26 may 2018



# 26 milyon insanı öldürə biləcək ağrıkəsici ələ keçirildi

**Amerikanın Nebraska ştatında, heroindən 30-50 dəfə daha güclü olduğu deyilən bir sintetik ağrıkəsici olan 53 kilo Fentanil ələ keçirilib. Təxmin edilir ki, bu miqdardakı Fentanil 26 milyondan artıq insanı öldürə bilər. Keçən ay baş tutan əməliyyatda Fentanilin bir yük maşınının gizli bölməsində tapıldığı açıqlanıb. Yük maşınının sürücüsü və sərnişin oturacağındakı bir nəfər göz altına alınıb.**

Polis yük maşınının sürücüsü olan 46 yaşındakı Felipa Genao-Minaya və sərnişin oturacağındakı 52 yaşlı Nelson Nunezi yol hərəkət qaydalarını pozduğu üçün saxlayıb. Şübhə ilə bağlı axtarış aparan polis alüminium kağızlara bükülmüş halda tapılan maddənin içində kokain olduğunu zənn edir. Amma aparılan testlər nəticəsində bu maddənin Fentanil olduğu müəyyənləşdi.

Fentanil duz kimi, ağ bir toza bənzəyən, sintetik opioid tərkibli bir maddədir. Təkcə iki milliqram Fentanil belə - bu, bir neçə süfrə duzu zərrəsi deməkdir - bir çox insanı öldürə biləcək bir dozada olduğu və maddəyə hansısa formada məruz qalınması zamanı daha öldürücü ola biləcəyi bildirilir.

# Bu da rəqəmsal qəbir

**Dünyada ilk dəfə Sloveniyanın Maribor şəhərində rəqəmsal qəbir yaranıb. Bu barədə lenta.ru saytı "The Daily Mail" qəzetinə istinadən xəbər verir. Nəşrin yazdığına əsasən, qeyri-adi qəbir daşı 2000-ci ildə dünyasını dəyişmiş Yanez Mlakar adlı şəxsə məxsusdur. 48 düyməli ekranla təchiz olunmuş qəbir daşında mərhuma aid foto və videoları görmək mümkündür. Bu əşyanı hazırlayan kampaniya rəhbərinin sözlərinə görə, ekranda hətta bütöv bir roman da yer ala bilər. Əgər məzarın yanında heç kim yoxdursa, orada ancaq mərhumun ad-soyadı, dünyasını dəyişdiyi tarix görünür. Ziyarətçinin gəlişi ilə translyasiya başlanır. Belə sxem enerjini rasional şəkildə xərcləmək imkanı verir.**




Bu layihə Maribor Universitetinin professoru Milan Zormana məxsusdur. Yeni icadın qiyməti 3 min avroya yaxındır. Kampaniya artıq bir neçə sifariş alıb. Amma bu cür məzar daşlarının ölkə xaricinə də satılıb-satılmadığı məlum deyil.

# Hakim 50 il həbs cəzası verən vaxt yuxuya getdi



**6 yaşlı uşağın qətlində ittiham edilən evsiz kişi hökm elan olunan zaman yuxuya gedib. Məhkəmə hökmü ilə ona 50 il həbs cəzası verilib. Bu haqda "Daily News" nəşri xəbər verib. Hyubert soyadlı kişi ilk gündən bu qətli inkar edir və hakimə onun məsum, gözəl insan olduğunu anlaması üçün üzünə baxmağı təklif edirdi. Bununla yanaşı, qətl yerində müxtəlif sübutlar, o cümlədən DNK analizləri onun suçlu olduğunu ortaya çıxarmışdı. İstintaqın araşdırmalarına görə, bıçaqla silahlanmış şəxs iki uşağın arxasınca liftə girib. Zərərçəkənlər 7 yaşlı Mikayl və 6 yaşlı Pi Cey olub. Qız 16 bıçaq yarası alıb, oğlan isə 11. Uşaqları qanlı vəziyyətdə liftdə tapıblar və xəstəxanaya çatdırıblar. Pi Çey ölümcül bıçaq yaralarına görə dünyasını dəyişib. Mikayla isə klinikada 9 gün boyunca qalıb.**

Kişi daha öncə də məhkəmə qarşısına çıxıb. O, doğma anasını öldürməyə cəhd etdiyi üçün həbsə düşüb. Ailəsi iddia edib ki, o, psixi pozğunluqdan əziyyət çəkir. Amma azadlığa çıxandan sonra heç cür həkimlərin psixoloji köməyini ala bilməyib.

Müdafiə tərəfi isə öz növbəsində onun azadlığa çıxmasına çalışırdı. Onun təmsilçiləri israr edirdilər ki, ittiham rasizm əlamətləri ilə doludur. Belə ki, ittiham ərizəsində ittiham olunan şəxs "özünü idarə edə bilməyən qaradərili insan" kimi təqdim olunub. Hakim qərarı elan edəndən sonra isə Hyubert oyanıb və öz-özünə rabitəsiz cümlələr deməyə başlayıb.

# Qoroskop




**QOÇ** - Pulla bağlı problemləriniz olsa da, qalan məsələlərdə ovqatınız xoş olacaq. Xüsusən də münasibətlər zəminində cərəyan edənlərdən rahatlıq tapacaqsınız. Uzaq yola çıxmayın.

**BUĞA** - Havaların istiləşməsi sizə mənfi təsir göstərməkdədir. Odur ki, var gücünüzlə sağlamlığınızı qoruyun. Nahardan sonra şəxsi işlərinizdə böyük dəyişikliklər mümkündür.

**ƏKİZLƏR** - Yaxşı olar ki, bürcünüzün "hakim" olduğu bu ərəfədə hisslərinizi cilovlayasınız. Əks təqdirdə arzulamadığınız qalmaqala tuş gələcəksiniz. Yeni əlaqələr uğurdan xəbər verir.

**XƏRÇƏNG** - Ulduzların düzümü səfərə çıxmaq üçün münasib vaxt olduğunu bildirir. Maddi durumunuz imkan verirsə, bundan imtina etməyin. Ətrafınızda olan insanları real qiymətləndirməkdə yanılmayın.

**ŞİR** - İxtiyarınızda olan bu təqvim sizə düşərli olacaq. Çünki ulduzlar xoş ovqat və qazanc əldə edəcəyinizi bildirir. Oturaq işlərə çox da həvəs göstərməyin. Aktivliyinizi artırın.

**QIZ** - Günün təhərindən asılı olmayaraq özünüzü bütünlüklə fəaliyyətə həsr etməlisiniz. Münasibət və alqı-satqı məsələlərinə isə həvəs göstərməyiniz məqsədəuyğun deyil. Axşam işgüzar söhbətlər aparmaq sizə səmərə verəcək.

**TƏRƏZİ** - İxtiyarınızda olan bu bazar günündə heç bir narahatçılığınız gözlənilmir. İşgüzar sövdələşmələrdə iştirak etsəniz, iyunun gəlişinə qədər hansısa probleminiz yaranmayacaq. Pulla bağlı ehtiyatlı olun.

**ƏQRƏB** - Özünüzü lovğa və ya təkəbbürlü aparmayın. Bu gün sizə sadə görünmək lazımdır. Bu yolla özünüzə qarşı rəğbət oyada bilərsiniz. Günortadan sonra qarşınıza yaxşı adamlar çıxacaq.

**OXATAN** - Bəri başdan nəzərinizə çatdıraq ki, bu gün başlıca vəzifəniz sağlamlığınızı qorumaq olmalıdır. Digər məsələlərə isə ciddi yanaşmağa ehtiyac yoxdur. Əsas gücünüzü istirahətə verin.

**OĞLAQ** - İkitərəfli əməkdaşlıq çox uğurludur. Artıq adamlar planlarınızı poza bilər. Tanınmış şəxslərlə əlaqələrinizi dərinləşdirin. Günün ikinci yarısında yeni simalarla görüşləriniz mümkündür.

**SUTÖKƏN** - Təzadlı bir gün yaşayacaqsınız. Ətrafınızda cərəyan edən situasiyalar gah müsbət, gah da mənfi istiqamətə yönələ bilər. Belə məqamlarda dostlarınızla birgə olmağa çalışın.

**BALIQLAR** - Sürprizlərlə dolu bir gün yaşayacağınız güman olunur. Ola bilsin ki, bu təqvim taleyinizin ən yaddaqalan tarixinə çevrilsin. Hər cəhətdən buna hazırlaşın. Soyuqqanlı olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Bağırsağından altı mobil telefon çıxdı



**Yerusəlim şəhərini əhatə edən divarı adlamaq istəyən kişi yaxalanıb və onun bağırsağından altı ədəd mobil telefon çıxıb. Lenta.ru saytı bununla bağlı xəbər verib. Qanun pozan şəxs divarı 22 mayda aşmaq istəyib. Sərhəd xidməti əməkdaşları onu fərq edib, istintaqa çağırıb və sonra azadlığa buraxıblar. Bir gün sonra o, geri qayıdıb, bir daha divara dırmaşıb və yenə eyni sərhəd xidməti əməkdaşları ilə toqquşub. Bu dəfə onu türməyə göndəriblər.**

Mobil telefonlar hər məhkumun həbsdən sonra məruz qaldığı axtarış zamanı aşkarlanıb. Polis isə güman edir ki, qanun pozucusu ilk gündən həbs olunub türməyə göndəriləcəyini bilirdi. Ona görə də digər məhkumlara vermək üçün özündə telefon saxlayırdı.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100